www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 dekabr 2015-ci il Cümə № 288 (6316) Qiymәti 40 qәpik

**Xəbər**

## Əfv siyahısı prezidentə göndərildi

yazısı səh.8-də

**Gündəm**

### ABŞ-a qarşı qanun layihəsini hazırlayan deputat danışdı


Rövşən Rzayev

"Bu, Azərbaycan hökumətinin deyil, bir millət vəkilinin mövqeyidir"; Amerikanın Bakıdakı səfirliyindən reaksiya

yazısı səh.9-da

### 6 müxalif partiya əməkdaşlıq mərkəzi yaratdı

yazısı səh.7-də

### Dərmanların qiymətinə "dərman" tapılacaqmı?

yazısı səh.6-da

### Azərbaycanın son 2 ayı - "MTN işi", yanğın, devalvasiya...

yazısı səh.12-də

### Şengen vizası barədə bilmədiklərimiz...

yazısı səh.13-də

### Özünü "Nikoil" bankın qarşısında yandırmaq istədi

yazısı səh.12-də

### Müxalifətdən hakimiyyətə dialoq çağırışı

yazısı səh.7-də

### Kritik dönəmdə ailə büdcəsini planlaşdırmağın yolları

yazısı səh.12-də

### Azərbaycanlı qumarbaz oğurlandı - 10 milyon dollar tələb olunur

yazısı səh.15-də

### Devalvasiya şoku marketlərdə "əriyir"

yazısı səh.6-da

### Daşınmaz əmlak bazarında çaşqınlıq

yazısı səh.3-də

## Əli Əhmədovun əmisi oğlu istintaq altında

# BAŞ NAZİR MÜAVİNİNİN QOHUMLARI ÜÇÜN HƏBS TƏHLÜKƏSİ - ŞOK TƏFƏRRÜAT

YAP-ın icra katibinin əmisi oğlunun işi hazırda Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində araşdırılır; "Azərpoçt" MMC-nin direktor müavini olan bacısı oğlunu isə nazir əvəzi yoxlatdırır...




yazısı səh.4-də

## PKK Ermənistanın və Rusiyanın yeni müttəfiqi rolunda

Azərbaycan torpaqlarında öldürülən işğalçı əsgərin tabutu PKK bayrağına büküldü - təsadüf, yoxsa? Həmsədrlərin passivliyi savaş risklərini artırıb

yazısı səh.11-də



### "Bəzi deputatların maaşlarını kəsmək məqbul olardı..."

yazısı səh.10-da



*Maksim Musayev:*

### "Sən xalqın manatını yemisən e..."

yazısı səh.5-də



### Partiya sədrlərindən kimlər İlham Əliyevi təbrik etdi?

yazısı səh.8-də



# Mehriban Əliyeva yenidən Gimnastika Federasiyasının prezidenti seçildi

**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva dekabrın 24-də yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Gimnastika Federasiyasının hesabat-seçki xarakterli altıncı ümumi yığıncağında keçirilən səsvermənin yekunlarına əsasən, Mehriban Əliyeva növbəti beş il müddətində federasiyaya rəhbərlik edəcək.**

Səsvermə nəticəsində, həmçinin Milli Məclisin deputatı Rauf Əliyev, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin direktoru Rafiq Behbudov və bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasilyeva federasiyanın İcraiyyə Komitəsinə üzv seçiliblər.

# Yumurta niyə 25 qəpik oldu?

**Dekabrın 21-də manatın 50 faiz ucuzlaşmasından sonra bir çox ərzaq malları kimi yumurta da bahalaşıb. İndi müxtəlif marketlərdə yumurtanın bir ədədi 17-19 qəpiyə satılır. Bu qiymət qablaşdırılmış formada satılan broyler yumurtalarına aiddir. Kənd yumurtasının bir ədədi isə 25 qəpiyə satılır.**

**Kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmli** deyir ki, bahalıq idxalla bağlıdır: "Yumurta Azərbaycanda istehsal olunsa da istehsalda istifadə edilən bütün vasitələr xaricdən gətirilir. Texnoloji avadanlıqlar, dərman preparatları, yumurta istehsalında istifadə olunan yem komponentləri, genetik material - hamısı xaricdən gətirilir. Ona görə bizdə yumurtanın qiyməti həmişə yüksək olub. Daşınma xərcləri, digər xərclər də var. Bunların hamısını hesablayanda bizdə yumurtanın maya dəyəri digər ölkələrə nisbətən yüksək olur".

**Vahid Məhərrəmli deyir ki, heç olmasa quş yemi daxildə istehsal olunsa, yumurta da ucuzlaşar:** "Əks halda, biz yumurta, quş əti ilə bağlı problem yaşayacağıq".

**Azərbaycan Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyev** isə AzadlıqRadiosuna deyir ki, yumurtanın bir ədədinin topdansatış qiyməti 15 qəpikdir: "Mağazaların qoyduğu qiymətə biz cavabdeh deyilik, onların bizə heç bir aidiyyəti yoxdur. İstehsalçı kimi yumurta bizdə 15 qəpikdir. Əvvəl 11-12 qəpik idi, devalvasiyadan sonra 14-15 qəpik olub. Təxminən 25 faiz artım olub".

Aydın Vəliyev də deyir ki, yumurta istehsalında vacib olan hər şey - yem, yem əlavələri, avadanlıq, baytarlıq preparatları, hamısı xaricdən gətirilir. Buna görə də qiymət bahalaşır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Pensiyalar artırılacaq

**Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev manatın devalvasiyasından sonra pensiyaların artırılıb-artırılmayacağına aydınlıq gətirib.**

"Report"un xəbərinə görə, DSMF sədri bildirib ki, mövcud qanunvericilikdə hər il pensiyaların inflyasiya faizləri nəzərə alınmaqla indeksləşdirilməsi proseduru müəyyənləşdirilib: "Bu da illərdir davam edən məsələdir. Bu il ölkə prezidenti tərəfindən verilən sərəncama uyğun olaraq, pensiyaların sığorta hissəsi və fərdi hesablara toplanan pensiya kapitallarının indeksləşdirilməsi aparılıb. Təbii ki, növbəti ildə də 2015-ci il üzrə istehlak qiymətləri indeksi elan olunduqdan sonra həmin indeks səviyyəsinə uyğun olaraq, əmək pensiyalarının sığorta hissəsinin və fərdi hesablara toplanan pensiya kapitallarının indeksləşdirilməsi prosesi reallaşdırılacaq".



**Fond sədri əlavə edib ki, bu, qanunvericiliyin normasıdır:** "2006-cı ildən bu yana prezident məsələ ilə bağlı 9 belə sərəncam imzalayıb. Yəni heç nə yeni deyil. Hər şey öz axarı ilə gedir. Təbii ki, bu işlərin reallaşdırılması üçün kifayət qədər vəsait var. Ümumilikdə götürdükdə bu sahədə heç bir problem yoxdur".

# "Azersun"dan bahalaşma etirafı: "Xammalı xaricdən alırıq"

AZERSUN

**Azərbaycanda qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ən böyük şirkətlərdən olan "Azersun Holding" MMC-nin məhsullarında da kəskin bahalaşma hiss olunur.**

Bahalaşma şəkər, qənd kimi məhsullarda o qədər də hiss edilməsə də, kərə və bitki yağları, çay, şirniyyat kimi qida, quşçuluq məhsullarında, xüsusilə yumurtada, kimyəvi və yuyucu toz məhsullarında özünü aşkar büruzə verir.

Modern.az-ın verdiyi xəbərə görə, "Azersun Holding" MMC-nin İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Afiq Səfərov bahalaşmanı təsdiq edərək, müvafiq açıqlama verib: "Nəzərə alın ki, ilin əvvəlindən 100 faizə qədər devalvasiya gedib. "Azersun Holding"in məhsulları 21 fevral devalvasiyasından sonra cəmi 5-10 faiz bahalaşmışdı. İkinci 50 faizlik devalvasiyanın qarşılığında isə 25 faizlik bahalaşma labüd idi".

**Şirkət rəsmisi devalvasiya baş verən an rəflərdəki məhsulların qiymətinin dərhal qaldırılmasına da aydınlıq gətirib:** "Bu zavod işləyir və biz lazım olan məhsulu valyuta ilə alıb emal edirikSə, buna getməliyik. Çünki növbəti dəfəyə məhsul sifariş vermək üçün dollar almaq məcburiyyətindəyik. Və həmin an tənzimləməyə getməsək, qiyməti bazara uyğunlaşdırmasaq, növbəti dəfə üçün sifariş verdiyimiz xammalı ala bilməyəcəyik. Nəticədə minlərlə insan işsiz qalacaq, bazarda isə qıtlıq yaranacaq.

Bizim insanımız düşünür ki, məhsul Azərbaycanda istehsal olunursa, niyə bahalaşıb? Anlamırlar ki, lazımlı xammal idxal olunur".

# Gürcüstan Azərbaycanda "turist ovu"na çıxır

GEORGIA GAMING CONGRESS

**2016-cı ildə Gürcüstan hökuməti Azərbaycandan daha çox turist cəlb etmək üçün xüsusi proqram başladacaq. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Gürcüstan kazinolarını birləşdirən "Georgia Gaming Congress" məlumat yayıb.**

Gürcüstanı azərbaycanlı turistlər üçün cəlbedici edən münasib qiymətə hotellər və xidmət, habelə leqal fəaliyyət göstərən kazinolardır.

Gürcüstan hökumətində deyirlər ki, azərbaycanlı turistlər Tiflisə və digər şəhərlərə əsasən 3-4 günlük gəlirlər və təxminən 200 dollar xərcləyirlər.

2015-ci ildə Azərbaycandan Gürcüstana gedən turistlərin sayında 10 faiz artım olub.

# Emin Millinin qaynının məhkəməsinin vaxtı açıqlandı

**Dekabrın 24-də Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsində ittiham olunan Bakı şəhər sakini Nazim Ağabəyovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası davam etdirilib.**



Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Əfqan Hacıyev sədrlik edib.

Məhkəmə baxışı dekabrın 28-nə təyin olunub.

Qeyd edək ki, N.Ağabəyov bu il iyulun 23-də evdən çıxıb idarə etdiyi avtomobillə işə gedərkən Binəqədi rayonu ərazisində, Mir Cəlal küçəsində yerləşən "Bol market" ticarət mərkəzinin yaxınlığında Bakı Şəhər Baş Polis İdarəsi Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılaraq Bakı Şəhər Baş Polis İdarəsinə aparılıb. Onun üzərinə və maşınına baxış keçirilərkən külli miqdarda (6,213 qram) heroin aşkar edilərək götürülüb. Xətai Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, kompüter mühəndisi olan N.Ağabəyov məşhur rəssam Mais Ağabəyovun oğlu, "Meydan TV" internet layihəsinin rəhbəri, Almaniyada mühacirətdə yaşayan Emin Millinin qaynıdır.

# Tahir İmanov bu gün evlənir

**Azərbaycanın əməkdar artisti, aktyor, "Parni iz Baku" KVN komandasının keçmiş üzvü, "Planet Parni iz Baku" KVN teatrının bədii rəhbəri, rejissor Tahir İmanovun bu gün toy mərasimi baş tutacaq.**

Baku.ws-in məlumatına görə, mərasim "JW Marriott Absheron" hotelində keçiriləcək. Toy mərasiminin mətbuata qapalı keçiriləcəyi bildirilir.

Qeyd edək ki, Tahir İmanov 13 dekabr 1974-cü ildə Bakı şəhərində anadan olub. Azərbaycanın xalq artisti, bəstəkar Süleyman Ələsgərovun nəvəsidir. Subaydır, indiyə kimi heç bir nikahı olmayıb.

# Tanınmış şair həbs olundu

**Tanınmış şair Saday Şəkərli polis əməkdaşları tərəfindən həbs olunub. Bu barədə Türkel Azərtürk öz facebook statusunda yazıb: "Dekabrin 22-də şair Saday Şəkərlinin tənqidi mövzuda yazdığı "Qurd ürəyi" adlı romanı işıq üzü görüb. Dekabrın 23-də isə saat 17 radələrində Saday Şəkərliyə zəng gəlib.**

Vergilər Nazirliyinin zəng edən əməkdaşı ona "sənə nə pislik etmişik, bizim adımızı hallandırmısan" sualından sonra onu məsələni aydınlaşdırmaq üçün nazirliyə dəvət edib. O, Vergilər Nazirliyində-cə Korrupsiyaya Qarşı Mübarizə İdarəsi və DİN əməkdaşları tərəfindən həbs edilib.

KQMİ-nin əməkdaşları Binəqədi Rayon Məhkəməsinin qərarı ilə şairin evində axtarış aparıblar. Maraqlısı odur ki, Cinayət Məcəlləsinin 182.2.3-cü (hədə-qorxu ilə tələb etmə, dəfələrlə törədildikdə, zor tətbiq etməklə törədildikdə (əmlakı müsadirə olunmaqla 5 ildən 10 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır) maddələri ilə ittiham olunan şairin evindən axtarış nəticəsində ittihama aidiyyəti olmayan şairin kitabları və noutbuku götürülüb. Bu da onu göstərir ki, o, konkret cinayət əsasında həbs edilməyib" (azadliq.info).

# Nardaranda polis rəisi kim olacaq?

**Nardaran qəsəbəsinin mərkəzi meydanında polis bölməsi üçün inşa edilən inzibati binanın tikintisi başa çatıb.**

Bina istifadəyə tam hazırdır. Hazırda polis bölməsinin şəxsi heyəti formalaşdırılır.

42-ci polis bölməsinin rəisi vəzifəsinin icrası müvəqqəti olaraq polis polkovniki Azər Cahangirova həvalə ediləcəyi gözlənilir.

Hazırda Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsində baş əməliyyat müvəkkili vəzifəsində işləyən A.Cahangirov uzun illər daxili işlər orqanlarında çalışıb. O, Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsinin rəisi vəzifəsində çalışarkən həmin vaxt Bakının Nardaran və digər kəndlərində bir sıra mütəşəkkil cinayətkar dəstə üzvlərinin zərərsizləşdirilməsində yaxından iştirak edib. Onun rəhbərliyi ilə keçirilən əməliyyatlarda xüsusilə ağır cinayətlər törətmiş şəxslər tutularaq məsuliyyətə cəlb ediliblər.

Bir neçə günə açılışı gözlənilən polis bölməsinin yeni ildən tam gücü ilə fəaliyyətə başlayacağı bildirilir.

Qeyd edək ki, Nardaran qəsəbəsində polis nəzarəti davam edir. Qəsəbənin giriş-çıxış yollarına polis və Daxili Qoşunların əsgərləri nəzarət edir (APA).

# "Kamerada kiminsə 15 dəqiqəyə özünü asması mümkün deyil"

## İl yarım Bakı İstintaq Təcridxanasında saxlanılan Əvəz Zeynallı MTN polkovnikinin intiharını şübhə altına alan sensasion faktları ortaya qoydu



**Bakı İstintaq Təcridxanasından (BİT) 2 gün fərqlə 2 dustaq - ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Anti-Terror Mərkəzinin rəis müavini olmuş İlqar Əliyevin və onun kamera yoldaşı olması deyilən Manaf Məmməd oğlu Paşayevin meyitləri çıxdı.**

Rəsmi məlumatlara görə, hər iki dustaq intihar edib. **"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı** ilə bu ehtimallar və İlqar Əliyevin ölümü ətrafında cərəyan edən olaylarla bağlı söhbətləşdik. 2011-ci ildə həbs olunaraq 1 il 6 ay Bakı İstintaq Təcridxanasında saxlanılan baş redaktor deyir ki, BİT-in hər korpusunda nəzarət kameraları var və hətta təqsirləndirilən şəxs kameradan çıxarılıb harasa aparılanda belə onun kimləsə salamlaşması böyük səs-küyə səbəb olur:

"BİT-də əvvəllər nəzarətçilər 8 saatlıq iş rejimində çalışırdılar. Sonradan isə 24 saatlıq iş rejiminə keçirdilər. Onlar 450 manat əmək haqqı alırlar və dustaqlardan 1-2 manat almaq məcburiyyətindədirlər. Orada bu gün durum belədir. Nəzarət sistemi son dərəcə bərbaddır. Mən İlqar Əliyevin ölümündən sonra Penitensiar Xidmətin məsələ ilə bağlı rəsmi məlumatı ilə tanış oldum. Sosial şəbəkədə yazdım ki, həmin rəsmi məlumatı hazırlayanlar BİT-dəki kameraların içindəki şəraitdən xəbərsizdir. Və ya nəzərə almayıblar ki, orada olmuş şəxslər də var və onlar da həqiqəti deyə, onların yalanlarını üzə çıxara bilərlər. BİT-də və oradakı kameranın içində kiminsə 15 dəqiqənin içində özünü asması mümkün deyil! Bu birmənalı belədir.

Çünki pəncərə o hündürlükdə deyil. Orada özünü asmağa nə şərait, nə imkan var.

***- Rəsmi məlumatdan belə qənaət formalaşır ki, oradakı kameraların pəncərələri hündürdə yerləşir. İlqar Əliyev də mələfəni pəncərəyə bağlamaqla özünü asıb...***

- İlqar Əliyevin boyu 1 metr 40 santimetr olsaydı belə onun həmin pəncərədən özünü asması mümkün olmazdı. Çünki ayaqları yerə dəyərdi. Onun isə boyu yəqin ki, daha hündür olub. 1 metr 70-80 olub. Əgər İlqar Əliyev oturub özünü asmaq istəsəydi belə yenə də bu mümkün olmayacaqdı. Çünki bu halda da pəncərənin hündürlüyü o səviyyədə deyil ki, İlqar Əliyev asılmış vəziyyətdə ölənə qədər dayana bilsin. Ölməyə də şərait lazımdır axı. BİT-dəki kamerada intihar mümkün deyil. Həmin məlumatı oxudum. Onu sonradan uydurublar ki, guya İlqar Əliyev intihar edib. Amma nəzərə almayıblar ki, oradakı kameralarda belə bir şərait yoxdur.

***- Tutaq ki, şərait rəsmi məlumatda yazıldığı kimi olub. Bəs nəzarətçilərin müdaxiləsi niyə olmayıb? Onun kamera yoldaşının 15 dəqiqə deyil, kameraya daha tez qayıtma ehtimalı da olub axı?***

- Telefonla ən çox danışmaq müddəti 15 dəqiqədir. Dustaq telefonla danışıq üçün həmin otağa 30-40 saniyəyə gedib çata və həmin müddətə də geri qayıda bilir. İlqar Əliyev 15 dəqiqədə özünü asa bilməz. İnanmıram ki, nəzarətçilər də onu diqqətdən kənar qoyardılar. Fikir verin, rəsmi məlumatda nəzarətçilərin səhlənkarlığı haqda nəsə yoxdur! İlqar Əliyev gözdən yayınıbsa, burada nəzarətçi səhlənkarlığı ortadadır. Bəs digər məhkum necə oldu gözdən yayındı? Nəzarətçilər harada olublar?

***- İlqar Əliyevin bu şəkildə ölümünü onun psixoloji durumu ilə əlaqələndirənlər oldu. Deyirdilər ki, daim komfort içində yaşamış sabiq idarə rəisi bir günün içində həbsə alınmasına və BİT kamerasına salınmasına dözə bilməyib, həyatla vidalaşmaq qərarını verib...***



- İlqar Əliyev ictimai-siyasi sektorda tanınan çox önəmli bir adamdır. Təbii ki, bunu təcridxana rəhbərliyi bilməmiş deyildi. O tip adamları adətən tək saxlayırlar. Məni ilyarımdan çox 4 nəfərlik kamerada tək qalmışam. Kameraya adam qəbul etməmişəm. Demək istəyirəm ki, qanunun dustaq üçün saxladığı imkanlar var. Onun komfort həyatdan sonra BİT-dəki kamerada dözüm limitinin tükəndiyi haqda fikirlər boş şeydir. İnsan zülmə tabedir. Mən orada yüzlərlə insan görmüşəm ki, vəzifədə, hər gün eyş-işrət içində olublar, hər gün komfort içində olandan sonra gəlib ora düşüblər. Hərəsinə də 10-15 il verdilər. Mən təcridxanada da, "zon"da da belə adamlar görmüşəm. Yəni insan bu gün yaxşı, sabah pis yaşayıb deyə intihar edib kimi bir şey yoxdur.

***- İlqar Əliyevin ölümü kəskin devalvasiya baş verən tarixə təsadüf etdi. Çox maraqlı təsadüf oldu. Sanki onun ölümü gündəmi zəbt etmiş devalvasiya məsələsinin kölgəsində qaldı...***

- Həqiqətən də çox maraqlı təsadüfdür. Ümumiyyətlə, təsadüfdürmü? Önəmli məqamlardan biri də İlqar Əliyevin ölümünün detalları ilə bağlıdır. Ortada rəsmi məlumatdan başqa demək olar ki, heç nə yoxdur. İlqar Əliyev həqiqətən ölübmü? Onun dəfni ilə bağlı 2 xəbər çıxdı - birinci xəbərdə deyilirdi ki, İlqar Əliyevin meyiti Göyçay rayonuna, doğulduğu kəndə aparılıb, orada dəfn ediləcək. Bir xəbər də çıxdı ki, artıq onu Bakıdakı "Qurd qapı"sı qəbiristanlığında dəfn ediblər. Bu məsələlər də araşdırılmalıdır.

***- Digər təqsirləndirilən şəxs Manaf Paşayevin ölümünə qayıdaq. 2 gün fərqlə eyni təcridxanada 2 intiharın olması, sizcə, təsadüfdür?***

- Məsələ çox ciddidir. "İçəri"də qayda belədir ki, əgər bir dustağı öldürüblərsə və ya buna mənim dustaq olaraq hər hansı bir şübhəm varsa, aləmi bir-birinə qatıram. Mümkündür ki, bizim təxmin etdiyimiz versiyaları həmin Manaf Paşayev bilib və çox önəmli şahid kimi aradan götürülüb. Rəsmi məlumatdan da aydın olurdu ki, bu çox naşı şəkildə hazırlanan bir iş olub. Kameranın içindəki vəziyyəti bilmədən belə açıqlama yazıb yayıblar. Belə görünür ki, həmin dustaq real vəziyyəti bildiyinə görə onu aradan götürüblər.

***-Manaf Paşayev haqda olan məlumatlara görə, bu şəxs 8 dəfə həbsdə olub. Onu 9-cu dəfə bu ilin yayında tutublar və BİT-ə göndəriblər. Deyək ki, İlqar Əliyevin psixoloji durumu tab gətirməyib və rəsmi məlumatda yazılan qaydada özünü asıb. Bəs türmə az qala evi olan dustaq özünü niyə assın?***

- BİT-də vəziyyət elədir ki, orada dustaqlar, nəzarətçilər bir-birini tanımırlar. Yəni İlqar Əliyev özü haqda məlumat verməsə, onunla birgə kamerada saxlanılan şəxs kimliyi haqda məlumatsız ola bilər. Həmçinin oradakı nəzarətçilər də. Çünki nəzarətçilər elə cahil, elə məlumatsız şəxslərdir ki... Orada mətbuatdan, cəmiyyətdən uzaq nəzarətçilər var. Bütün ölkənin tanıdığı adamları belə oradakı nəzarətçilər tanımır. Heyrətamizdir, amma orada belədir. Ola bilər ki, İlqar Əliyevin yanında saxlanan dustaq gəlib görüb ki, onun kamera yoldaşı ölüb və qışqır-bağır salıb. Deyib ki, onun kamera yoldaşını öldürüblər. Bu mümkün məsələdir və bunu etdiyinə görə də onu aradan götürüblər. Bəlkə həmin binəva ölmüş şəxsin kimliyini bilmədən qışqır-bağır salıb. Bilsəydi ki, İlqar Əliyev kimdir, mümkündür ki, susardı. 9-cu dəfə həbs olunursa, deməli, köhnə dustaqdır və ömründə yalan danışmaz. Yəni o çıxıb düzünü deyəcəkdi - "bəs filan vaxt kamerada İlqar Əliyevi asıblar" deyəcəkdi. Burada sirri gizlətmə, qapatma cəhdi var və işin rəngini dəyişmə cəhdi ortadadır.

***- Rəsmi məlumata inansaq, BİT-də 2 gün fərqlə 2 dustaq özünü asıb. Bu halda orada saxlanan MTN generalları Akif Çovdarov, Sübahir Qurbanov və digərlərinin həyatlarının təhlükədə olduğunu söyləmək olarmı?***

- Bir təcridxanadan 2 gün fərqlə 2 ölü çıxırsa, deməli, orada başqa olaylar baş verə biləcəyini gözləmək olar.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Şəmsiyyə Bəylərqızı prezidentdən əfv istədi

## "Cənab prezident, mənim Sizdən başqa sözümü deyəcəyim kimsəm yoxdur, 9 yaşlı oğlum küçələrdə qalıb, məni əfv edin"



**4 ildən artıqdır həbsdə olan yazıçı-jurnalist Şəmsiyyə Bəylərqızı saxlanıldığı cəzaçəkmə müəssisəsindən redaksiyamıza telefon açaraq onun prezident İlham Əliyevə əfv müraciəti olduğunu bildirdi.**

**Şəmsiyyə Bəylərqızı dedi:** "Çox hörmətli Cənab Prezident. Mən bu gün kimsəsi olmayan, yeganə doğmamı - anamı da türmədə olduğum zaman itirmiş bir qadınam. Mən keçmiş səfir, həyat yoldaşım olmuş, azyaşlı övladım Yılmazın atası Əfşar Süleymaninin əsassız bir iddiası ilə həbs edilmişəm. Kimsəsiz olduğumdan, anam həyatda olmadığından həbsxana divarları arxasından Əfv Komissiyası vasitəsilə şəxsən sizə yazılı müraciətimi çatdırmaq mümkün olmadı. Bu səbəbdən sizə telefonla danışmaq hüququmdan istifadə edərək, mətbuat vasitəsilə müraciət etməkdən başqa çıxış yolum qalmadı.

Mən 4 ildən artıqdır həbsxana divarları arasındayam, mənim əvəzimdən əfv yazacaq kimsəm də qalmayıb həyatda. Mənim sözümü deyə biləcəyim yeganə insan sizsiniz, Cənab Prezident. Mənim 9 yaşlı övladım illərdir küçələrdə qalıb. Məndən başqa onun kimsəsi yoxdur. Bu həyatda yeganə arzum övladımın təlim-tərbiyəsi ilə məşğul olmaq, onu vətənə layiqli övlad, əsgər kimi yetişdirməkdir. Sizdən bir ana, Azərbaycan vətəndaşı kimi xahiş edirəm, məni əfv edin".

❑ **M.MAHRIZLI**

# Daşınmaz əmlak bazarında çaşqınlıq

## Ekspertlərin fikirləri çox fərqlidir, bazarın iki aya "şok"dan ayılacağını düşünənlər də var...

**Bir il ərzində ölkədə baş verən iki kəskin devalvasiya ölkənin daşınmaz əmlak bazarı ilə bağlı narahatlıqları da artırıb. Ekspertlərin yaxın müddət ərzində ev bazarı ilə bağlı proqnozları isə bir-birindən xeyli fərqlənir. Ekspert Nüsrət İbrahimov musavat.com-a açıqlamasında qeyd edib ki, yaxın müddət ərzində bazarda qeyri-müəyyənlik olacaq: "Satıcı da, alıcı da qeyri-müəyyən vəziyyətdədir. Bir müddət bazar bu donmuş vəziyyətdə qalacaq. Hadisələrin hansı səmtə cərəyan edəcəyini gözləyəcəklər. Bu, bazarda vəziyyət sabitləşənə qədər davam edəcək. Azı iki ay bu cür olacaq".**

Ekspertin sözlərinə görə, bu cür vəziyyət müvəqqəti xarakter daşıyır: "Evlərin qiymətinin süni şəkildə qaldırılmasına cəhdlər ola bilər. Bu, ötən devalvasiyadan sonra da baş vermişdi. Ancaq nəticəsiz oldu. Gələn il fevralın sonlarından qiymətlərin stabilliyi və bir qədər aşağı düşməsi proqnozlaşdırılır. Qiymətlər artmayacaq. Qiymətlər o zaman artır ki, bazara əlavə pul kütləsi daxil olur və əhalinin pulu artır. Bu dəfə heç biri olmadığına görə bazarda bahalaşma olmayacaq. Aktivlik aşağı səviyyədə olacaq. Təkrar mənzil bazarında müəyyən canlanma ola bilər, ancaq bu, gələn il ipoteka portfelinin artmasına bağlıdır. İlkin mənzil bazarında isə vəziyyət bir qədər çətin olacaq".

**Ekspert Rəşad Əliyev isə bildirib ki, devalvasiyanın bazara təsiri çoxpilləli olacaq. Buraya cari təsir, qısamüddətli və üzunmüddətli təsirlər daxildir. "Cari təsir bazarın "şok" vəziyyətə düşməsidir:** "Bu ssenari bu ilin fevral devalvasiyasında olduğu kimi cərəyan edəcək. Qabaqcadan razılaşdırılmış və "behləşmə" aparılmış alqı-satqı əməliyyatlarının bir hissəsi təxirə salınacaq. Əmlak almaq istəyən alıcıların bir hissəsi gözləmə mövqeyinə çəkiləcək. Satışa çıxarılan bəzi əmlakların bir hissəsinin satışı dayandırılacaq, bir hissəsinin qiymətinə yenidən baxılacaq, bir hissəsininki isə olduğu kimi qalacaq".

**Qeyd edək ki, bəzi ekspertlərə görə, devalvasiya və manatın ucuzlaşması şəraitində vəsaitləri saxlamaq üçün ən yaxşı variantlardan biri də onu daşınmaz əmlaka- mənzil və obyektlərə yatarmaqdır. "Koneko" qiymətləndirmə şirkətinin baş mütəxəssisi Vüqar Oruc fins.az-a bildirib ki, milli valyutanın məzənnəsindən asılı olmayaraq istənilən iqtisadi şəraitdə daşınmaz əmlaka investisiya qoyuluşu sərfəlidir. Onun sözlərinə görə, əmlak bazarına pul qoymaq istəyənlər bu məsələdə devalvasiyanı nəzərə almamalıdır:** "İqtisadi böhran əmlakı müvəqqəti ucuzlaşdıra bilər, amma tədricən qiymətlər yenə də bərpa olunur, əmlak dəyər qazanır. Ona həmişə tələbat var. Bir qrup insan üçün var-dövlətdir, bəziləri üçün yaşayış yeridir, bir qisim insanlar üçün isə icarə-kirayə fəaliyyəti üçün vasitədir. Daimi gəlir yerinə malik olmaq istəyənlər daşınmaz əmlaka investisiya etməkdən çəkinməməlidir. Bu, xüsusilə qeyri-yaşayış sahələrinə aiddir".

**"Caspian Property Services" şirkətinin direktoru Rəna Axundova isə qeyd edib ki, iş adamları dollar bahalaşması nəticəsində daşınmaz əmlakın ucuzlaşmasından istifadə etməlidir:** "İqtisadi böhran əmlak almaq üçün əsl fürsətdir. Tədricən iqtisadiyyat sabitləşəcək. Bu həm neftin bahalaşması, həm də digər sahələrin inkişafı hesabına ola bilər. Uzunmüddətli perspektiv üçün torpaq sahələrinə, qısamüddətli perspektiv üçün isə mənzillərə pul qoymaq olar. İqtisadi böhran tikinti sektorunu zəiflədə bilər ki, bu da son nəticədə satışa çıxarılan mənzillərin sayını azalda, onların qiymətini artıra bilər. Həmçinin mənzil almaq fikrindən daşınanlar torpaq alıb fərdi ev tikməyə üz tuta bilər. Yəni böhranın təsiri ilə hər iki növ əmlakın bahalaşması mümkündür".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

# İqtidara asi çıxan məmurların sayı arta bilərmi...

## Qabil Hüseynli: "Baş verən hadisələr çox diqqətlə nəzərdən keçirilməlidir və bunları doğuran səbəblərin kökünə qədər gedib çıxmaq lazımdır"



**Başa çatmaq üzrə olan 2015-ci il hakimiyyətə asi çıxma hadisələri ilə də yadda qaldı. İlin birinci yarısı Azərbaycan iqtidarına qarşı diplomat üsyanı oldu. Səfir Arif Məmmədov Azərbaycan iqtidarına asi çıxaraq müxalifət mövqeyinə keçdi. Onunla bərabər bir neçə konsul da antiiqtidar mövqeyinə qoşuldular. Yeni Azərbaycan Partiyasının qurucularından olan Eldar Sabiroğlu isə son aylarda hakimiyyətin yuxarı kürsülərində əyləşən iri ranqlı fiqurlara üsyan bayrağı qaldırdı. Bir neçə gün öncə isə onun Zərdab Rayon Prokurorluğunda müstəntiq işləyən oğlu Rüfət Səfərov prokurorluq orqanlarından istefa verdi. R.Səfərov işlədiyi struktura və ümumlikdə hakimiyyətə sərt ittihamlar yağdırdı və müxalifətə keçdiyini elan etdi. O, eyni zamanda bəyan etdi ki, məmur təbəqəsi sıralarında vəziyyətdən bezən çoxsaylı insanlar var.**

R.Səfərovun bu açıqlaması onu deməyə əsas verirmi ki, hakimiyyətə asi çıxanların sayı arta bilər? Hakimiyyətə qarşı üsyan bayrağı qaldırma hallarının arxasında hansısa qaranlıq qüvvələr ola bilərmi?

**Politoloq Qabil Hüseynli** hesab edir ki, xaricdə işləyən diplomatların üsyankar mövqe ortaya qoymasının arxasında xarici qaranlıq qüvvələrin dayanmasından danışmaq mümkündür. Çünki həmin adamlara müxtəlif təminatlar vəd edilir, siyasi sığınacaqlar verilir və əvvəlcədən də bir növü öz ştatlarına götürülür: "Ölkə daxilində qaranlıq qüvvələrin fəaliyyət göstərməsinə isə şəraitin olmadığı qənaətindəyəm. Daxildəki proseslərdə, istefa verib hakimiyyətə qarşı çıxma hallarının arxasında hansısa qaranlıq qüvvənin, siyasi qüvvənin dayandığını təxmin etmirəm. Sadəcə olaraq, onlar ya özlərinin cəmiyyətdəki statuslarından narazıdırlar, ya da kimlərləsə şəxsi problemlərinin təsiri altında belə davranırlar. Məsələn, prokurorluq orqanlarından yenicə istefa verib müxalifətə keçdiyini bəyan edən oğlan Bakıda ondan qat-qat aşağı səviyyədə olan adamların paytaxtda daha yüksək yerlərdə, daha imtiyazlı yerlərdə vəzifələr tutduğunu söyləyib. Onun iddialarında həm də mövcud ictimai-siyasi durumla bağlı ittihamlar da geniş yer tutur. Hətta o öz ittihamlarında atasının mövqeyinə qarşı da çıxış edir. Bax, bu nöqteyi-nəzərdən, zənnimcə onun tutduğu mövqe daha çox müstəqil mövqeyə bənzəyir".

**Politoloq vurğuladı ki, vəzifəli bir şəxsin nədən narazı olduğunu başa düşmək bir qədər çətindir:** "Düzdür, o, xalqın vəziyyətini daha çox qabardır, müxalifətdən daha çox müxalifətçilik etməyə çalışır. Bu saat ölkədə vəziyyət elədir ki, özümüzün daxili və xarici siyasətimizlə bağlı müəyyən dəyişikliklər etmək məcburiyyətindəyik. Çünki bizə həm xaricdən həmlələr olur, həm də son dövrlər əhalinin əhval-ruhiyyəsində də mənfiyə doğru müəyyən dəyişikliklərin olduğunu görməmək mümkün deyil. Belə bir vəziyyət bundan sonrakı mərhələdə istefa hallarının, iqtidara asi çıxma hallarının yaşana biləcəyi ehtimalını artırır. Mən bu dövləti sevən, dövlətçiliyimizin qorunub daha da möhkəmlənməsini istəyən adam kimi deyirəm ki, baş verən hadisələr çox diqqətlə nəzərdən keçirilməli və bu hadisələri doğuran səbəblərin kökünə qədər gedib çıxmaq lazımdır. Mən bu fikri birbaşa o prokurorluqdan istefa verən müstəntiqin timsalında demək istəmirəm. Məsələ burasındadır ki, belə hadisələrin səbəbləri dəqiq araşdırılmasa və ədalətli yanaşma ortaya qoyulmasa, arzuolunmaz hallara rast gəlmək ehtimalı artır. Son devalvasiya hadisəsindən, MTN hadisələrindən, ABŞ-la münasibətlərdə gərginlikdən sonra belə hallar müşahidə edilməyə başlaya bilər. Ölkədə ciddi islahatlar davam etdirilməli və neqativ hallara qarşı kəskin mübarizə aparılmalıdır".

❑ **E.SEYİDAĞA**

# Əli Əhmədovun əmisi oğlu istintaq altında

**2013-cü il prezident seçkisindən sonra baş nazirin müavini təyin edilən Əli Əhmədov qohumları səbəbindən yenidən hədəfə gəlib. YAP-ın icra katibi kimi də fəaliyyət göstərən Ə.Əhmədovun əmisi oğlunun işi hazırda Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində araşdırılır.**



# Baş nazir müavininin qohumları üçün həbs təhlükəsi - şok təfərrüat

## YAP-ın icra katibinin əmisi oğlunun işi hazırda Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində araşdırılır; "Azərpoçt" MMC-nin direktor müavini olan bacısı oğlunu isə nazir əvəzi yoxlatdırır...

"Yeni Müsavat"ın məlumatına görə, saxta sənədlərin düzəldilməsində və külli miqdarda mənimsəmədə ittiham olunan Aqil Oruc oğlu Əhmədov istintaq altındadır və yaxın günlərdə iş məhkəməyə göndəriləcək. Mənbəmizin xəbərində deyilir ki, A.Əhmədov tək deyil, bir neçə nəfərdən ibarət mütəşəkkil dəstə üzvləri istintaqa cəlb edilib. Bildirilir ki, ən yaxın qohumunun istintaqa cəlb edilməsi Ə.Əhmədovu xeyli məyus edib. Çünki iqtidardakı, həm də YAP-dakı rəqibləri bunu Ə.Əhmədova qarşı istifadə edirlər və bu məsələ yuxarılarda kifayət qədər narazılıq yaradıb.

Qeyd edək ki, bundan əvvəl mediada Əli Əhmədovun qardaşı İliç Əhmədovun da dələduzluqda ittiham olunması ilə bağlı xəbərlər yayılmışdı. Onun bir neçə nəfərdən torpaq sahəsi üçün pul aldığı, sonradan isə məsuliyyətdən yayındığı deyilirdi.

Ə.Əhmədovun daha bir yüksək vəzifə tutan qohumu da onun üçün ciddi başağrısına çevrilib. Söhbət "Azərpoçt" MMC-nin baş direktoru vəzifəsini icra edən Sübhan Kazımovdan gedir. Sübhan Kazımov Ə.Əhmədovun bacısı oğludur. Məlumdur ki, MTN-dəki qalmaqallı həbslərdən sonra Rabitə Və Yüksək Texnologiyalar Nazirliyinin idarə və müəssisələrində də antikorrupsiya həbsləri başlayıb. Noyabrın 3-də "Azərpoçt" MMC-nin baş direktoru Qəmbər Bəybalayev Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb. Q. Bəybalayev barəsində 3 aylıq həbs- qətimkan tədbiri seçilib. İddialara görə, Əli Əhmədovun bacısı oğlunun yüksək posta gətirilməsinə səbəb sabiq nazir Əli Abbasov olub. S. Kazımov 2002-ci ildə "Azərpoçt" MMC-də texniki şöbənin rəisi olsa da, YAP Siyasi Şurasının üzvü Əli Abbasov nazir təyin olunduqdan (2014) az müddət sonra o, "Azərpoçt" MMC-nin baş direktor müavini olub. Poçt sahəsində çalışanlar deyirlər ki, "Azərpoçt"da baş vermiş qanunsuz əməllərdə bacı oğlunun da əli var. İddia olunur ki, baş direktorun tutulmasından sonra Ə.Əhmədov bacısı oğlunu direktor təyin etdirmək niyyətindədir. Amma rabitə və informasiya texnologiyaları naziri əvəzi Ramin Quluzadə S.Kazımovla işləməkdə o qədər də həvəsli deyil. Təsadüfi deyil ki, bir neçə gün əvvəl nazir əvəzi R.Quluzadə qəfil "Azərpoçt" MMC-yə gəlib və qurumun necə işlədiyini yoxlayıb.

Məlumata görə, bu cür qəfil reyd ondan xəbər verir ki, nazirliyin strukturuna daxil olan "Azərpoçtda" yoxlamalar və "təmizləmə" davam etdiriləcək. Ə.Əhmədov və bacısı oğlu isə bu prosesdən heç də uduşlu çıxmayacaq...

❑ **"Yeni Müsavat"**

# Ölkənin böhranlı günlərində mətbuat necə davranmalıdır?

**Dekabrın 21-də Azərbaycanda baş verən ikinci devalvasiya əksər sahələrdə böhran yaradıb. Neçə gündür sosial şəbəkələrdə dezinformasiya yayılır. Gah iri ticarət mərkəzlərində insanların etiraza qalxdığı haqda yalançı xəbərlər yayılır, gah da xalqın Bakı küçələrinə axışdığı deyilir.**



## Mehman Əliyev: "Kiməsə tərif yağdırmaq qəhrəmanlıq tələb etmir"



## Aynur Camalqızı: "Dezo xarakterli məlumatlar cəmiyyəti alt-üst edər"



## Aydın Quliyev: "Dövlətçilik prinsipini hər şeydən öndə tutmaq vacibdir"

Əsas müzakirə mövzularından biri də peşəkar medianın belə hallarda vəzifələrinin nədən ibarət olmasıdır. Heç şübhəsiz ki, son olaylardan yana ciddi şəkildə gərilmiş ölkədə mətbuatın da üzərinə müəyyən vəzifələr düşür.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, mətbuatın ən böyük vəzifəsi həqiqəti insanlara çatdırmaqdır: "Birinci prinsipimiz həqiqəti deməkdir. Bu baxımdan nəyinsə naminə həqiqəti gizlətmək doğru deyil. İnsanları çaşdırmaq olmaz. Bir misal gətirim ki, devalvasiyadan sonra telekanallar yalançı şəxsləri çıxardıb danışdırırlar. Onlar da deyirlər ki, marketə getdim, hər şey yaxşıdır, heç nə bahalaşmayıb. Amma marketdə vəziyyət tamam başqadır. Əslində mətbuat bu yalanları üzə çıxarmalı, doğrunu deməlidir. Maraq doğuran suallara cavab tapmaq, hökumətin səhv siyasətini tənqid etmək də vəzifələrimizə daxildir. Media ictimai nəzarəti gücləndirməli, hakimiyyətə nəzarət etməlidir. Bu, birbaşa medianın funksiyasıdır. Tərifləmək çıxış yolu deyil. Kiməsə tərif yağdırmaq qəhrəmanlıq tələb etmir. Hakimiyyət medianı tənqidçi ruhda olan sahə kimi qəbul etməlidir. Onu özünə opponent, nəzarətçi kimi qəbul etməlidir. Amma hakimiyyət hazırda bunu etmir. Ona görə də bu duruma düşüb. Nəticədə xalqı da bu vəziyyətə gətiriblər. Neçə illərdir mətbuatı, vətəndaş cəmiyyətini, siyasi opponentlərini məhv edə-edə gəlirlər. Sonluq göz önündədir. Cəmiyyətdə qarşılıqlı nəzarət olmayanda, bundan hansısa qüvvə istifadə etməyə çalışır. İndi ortaya çıxan nəticə obyektivdir. İqtidar mətbuata aşağı gözlə baxmamalıdır. "Mən nə istəyirəmsə, onu yaz, məni təriflə" - bu, müsbət sonluq vəd etmir. Mətbuat çalışmalıdır ki, hakimiyyətə qərarlarını düzgün verməyi çatdırsın".

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı informasiyanı ən güclü silah adlandırdı:** "Medianın güclü silah olduğunu danmaq olmaz. Dünyanın istənilən ölkəsində elə bir dezo xarakterli məlumat dərc etmək olar ki, cəmiyyəti alt-üst edər. İnformasiyanın bu dərəcədə təsir etmək gücü var. İctimai rəyi anında dəyişə bilər. Hazırda Ermənistanla faktiki müharibə vəziyyətindəyik. Dünyada gedən proseslərin ölkəmizə təsiri qaçılmazdır. Bu baxımdan düşünürəm ki, media son dərəcə ehtiyatlı olmalıdır. Hər hansı bir informasiyanı dərc edərkən, məsuliyyətli, diqqətli olmaq vacibdir. Bu vəziyyət hər bir jurnalistin, media patronunun üzrinə ciddi məsuliyyət yükləyir. Bizim işimiz informasiya verməkdir. Eyni zamanda informasiyanın istehlakçısı olaraq, bütün məsuliyyət üzərimizdədir. Verdiyimiz xəbərdən öncə dövlət maraqlarını daha çox öndə tutmalıyıq. Peşəkar jurnalistdən daha çox vətənpərvər vətəndaş olmaq vacibdir".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev jurnalistikanın qızıl prinsiplərinə əməl etməyin vacibliyindən söz açdı:** "Mətbuatda hazırda peşəkarlıq nöqteyi-nəzərindən böhran əlaməti yoxdur. Medianın fəaliyyəti qanunlarla tənzimlənir. Hər bir hadisədən yaza bilirlər, şərh verirlər. Sadəcə, ölkədəki iqtisadi vəziyyət jurnalistlərin fəaliyyətinə müəyyən təsir edə bilir. Ölkədə vəziyyətin necə olmasından asılı olmayaraq, media nümayəndələri qızıl prinsipləri əllərində tutmalıdırlar. Yəni obyektivlik, qərəzdən uzaq, balans qorumaq, ən əsası isə dövlətçilik prinsipini hər şeydən öndə tutmaq vacibdir. Bütün jurnalistlər hər zaman, o cümlədən indi buna əməl etməlidirlər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

# "Sən xalqın manatını yemisən e..."

## Maksim Musayevdən Eldar İbrahimova sərt reaksiya

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Eldar İbrahimovun "Yeni Müsavat"a son müsahibəsi birmənalı qarşılanmayıb. Alternativ fikir müəlliflərindən biri də sabiq deputat, YAP üzvü Maksim Musayevdir. Bizə müsahibəsində komitə sədri olan partiyadaşının fikirlərini heç cür qəbul etmədiyini bildirdi:**

- Eldar İbrahimovun sizə cavablarından belə çıxır ki, biz kar-korlar icmasında, ya da savadsızlar ölkəsində yaşayırıq. Bu qədər susmaq bəsdir! Deyir "inşallah, neftin qiyməti qalxar, hər şey düzələr". Bu dərk eləmir ki, qeyri-neft sektorunun inkişaf etməsində aqrar siyasət birinci yerdə olmalıdır. Aqrar siyasət o qədər dəqiq tənzimlənməlidir ki, neftin qiymətinin aşağı-yuxarı düşməsi vəziyyətə ciddi təsir göstərməsin. Deyir, bu vəziyyət kənd təsərrüfatında özünü o qədər ciddi göstərməyəcək. Necə yəni ciddi təsir göstərməyəcək? İlk növbədə kənd təsərrüfatına, kəndlinin cibinə, aqrar sahəyə təsir edəcək. Bu o qədər ciddi məsələdir ki, hamıya ciddi təsiri var. Mən dərk eləyə bilmirəm, necə olur bu adam 25 ilə yaxındır Milli Məclisdə Azərbaycanın aqrar siyasətinə rəhbərlik edir. Təsəvvürə gətirin, qiymətləri neftlə müqayisə edir. Ortaya sual çıxır, sən neft siyasəti üzrə komitənin sədrisən, yoxsa aqrar siyasət komitəsinin? Məgər bu qiymət artımında sənin, parlamentin, YAP-ın İdarə Heyətinin günahı yoxdur? Siz sual verirsiniz ki, hasardan danışır. Məgər hasar siyasəti var? Hasarla bağlı suallara cavab verir, amma deyə bilmir ki, bizdə taxılın, kartofun maya dəyəri nə qədərdir. İndi qiymət qalxıb, kartof almağa imkan da yoxdur. Deyə bilmir ki, hansı sortları becəririk. Sən indiyə kimi hansı kənddə olmusan? Altında da maşın var, şükür Allaha, deputatlar üçün böyük imkanlar yaradıblar, get, kəndlilərlə görüş. Əgər hektardan 55-60 sentner taxıl götürülürsə, demək, bizdə çörəyin qiyməti 5 qəpikdən yuxarı olmamalıydı. Yaxud deyir hər inəkdən 5-7 min litr süd istehsal olunur. Əgər dediyinə əsasən hesablama aparsaq, belə çıxır ki, hər birimizin evində iki yox, üç kran olmalıdır: biri soyuq suyun, biri isti suyun, biri də süd kranı. Ki, açaq, su əvəzinə süd içək.

***- Yox, Eldar İbrahimov iki rayonda pilot layihəsinin həyata keçirildiyini deyir...***

- Nə pilot? Sizə quzu kəsim, boş-boş danışmaq bəs deyilmi? Nə qədər boş-boş danışmaq, xalqa nə qədər yalan fikirlər demək olar? Bu vəziyyət məni çox narahat etdiyi üçün fikirlərimi söyləyirəm. Bəsdir daha, düz danışmaq lazımdır. Bir də ki, özünün üzərinə düşən günahları yıxır Prezident Administrasiyasının üzərinə. Deyir, orda hazırlıqlar gedir, iş aparılır. Yaxud da deyir hökumətdə, Nazirlər Kabinetində iş gedir. Məmurları tərifləyir ki, bizdə yaxşı kadrlar var. Belə tərifli məmuru olan ölkədə birdən-birə qiymət artarmı? Bu qiymət artımında məgər sənin günahın yoxdur? Siz sual verirsiniz ki, deputatların maaşı artırıla bilərmi? O nə desə yaxşıdır: "Hələ ki heç nə yoxdur". Bunun ümidi var ki, artmalıdır. Utanmalıdır ki, artım gözləyir. Bizim büdcəmiz 25 faiz azalıb. Deməlidir ki, bir halda büdcədə pul azalıb, bizim də maaşımızı kəsməlidirlər, qoy bizim kəndlilərimizin gəliri artsın, kənd müəllimlərinin, həkimlərin maaşı artsın. Bu, öz cibini düşünür. Bilmirəm siz onun dediklərinə fikir verdiniz, ya yox?

***- Biz sadəcə müsahibəni olduğu kimi oxucuya təqdim etdik. Bütün fikirlərə hörmətlə yanaşırıq...***

- Sizin elə ən yekə oxucunuz mən deyiləmmi? Görün onun dedikləri məni nə qədər narahat edib.

***- Eldar İbrahimovu yəqin ki, illərdir tanıyırsınız...***

- Ay sizə quzu kəsim, mən Eldarı Naxçıvanda hələ sıravi işdə işləyəndən tanıyıram. Özü də o dövrdə bu, çox düz, yaxşı, həddindən artıq normal işləyən bir adam idi. İkimiz də 1-ci çağırış deputat olmuşuq, o, mənim yanımda oturub. Düzdür, o deyir YAP-ın yaradılmasında Maksim Musayevin əməyi olmayıb. Özü və Allahı bilər. Amma onun əməyini mən gözümlə görmüşəm. Masallıdan Əbilov Şirvan var idi, Naxçıvanda YAP yaradılanda mən onunla bir otaqda qalırdım, Eldar İbrahimov gəlib yorğanları üstümüzə örtüb gedirdi. Ancaq özü də deyir ki, mən bilmirəm Maksim YAP-ın üzvüdür, ya yox.

***- Tanıyırsınızsa, deməli, onun savadına, aqrar sahənin bilicisi olmasına da şübhəniz olmamalıdır, elə deyilmi?***

- Bilmir! Qətiyyən bilmir. Bilən adam belə danışmaz. O, İqtisad Universitetində kafedra müdiridir. Kafedra müdiri belə şey danışarmı?

***- Ola bilərmi ki, vəziyyətin ciddiliyindən, narahatlığın çoxluğundan arqumentlər zəif olub?***

- Deyə biməzdimi ki, xahiş edirəm mənə yox, digərlərinə müraciət elə. Görmürsən axırda nə deyir? Siz neft haqqında sual vermisiniz, deyib get, onu neftçilərdən soruş. Sənsən e cavabdeh! Əgər qeyri-neft sektoru zəifləyibsə, cavabını verməlisən. Bir də ki, idxal və ixrac haqqında qanun hazırlamalısan. Deyir, biz bir azdan sonra xarici bazarı ələ alacağıq. Sən heç öz vətəndaşlarını kartofla, tərəvəzlə təmin edə bilmirsən. Ya danışmasın, ağzına su alıb dursun, ya da...

***- Haqq üçün deyək ki, əslində danışmaq istəmirdi, bizim israrlı xahişimizi nəzərə alıb müsahibə verdi.***

- Bir də ki, bu, əsl YAP-çıdır da. Ona sual verirəm, neçə ildir sən YAP İdarə Heyətinin üzvüsən. YAP İdarə Heyəti bir dəfə yığılıb müzakirə edibmi ki, Azərbaycanda manatın dəyərinə təhlükə gözlənilir?

***- Siz özünüz də YAP üzvüsünüz...***

- Bəli, YAP üzvüyəm, qalıram, çıxartmaq istəyirlər, amma çıxara bilməyəcəklər.

***- Özünüz də partiya rəhbərliyinə vəziyyətlə bağlı müraciət edə, təkliflər verə bilərdiniz. Niyə etmədiniz?***

- Məni YAP-a çağırmırlar. Tədbirlər, yubileylər keçirilir, deyirlər onu qoymayın bura gəlsin. Çünki mən belə danışıram.

***- Mətbuat vasitəsilə müraciət edə bilməzdinizmi?***

- Yox. Mən kimə yalvarım? Əli Əhmədova yalvarım? O vaxt YAP-ı yaradanda bunlar bizim əleyhimizə gedən adamlar idi.

**Qocaman YAP-çıdan partiya yoldaşına kəskin suallar: "Məgər bu qiymət artımında sənin, parlamentin, YAP-ın İdarə Heyətinin günahı yoxdur; nə qədər boş-boş danışmaq, xalqa nə qədər yalan fikirlər demək olar?"**

***- Yeri gəlmişkən, YAP üzvü Eldar Sabiroğlunun müstəntiq oğlunun müxalifətə keçməsi xəbərini necə qarşıladınız?***

- Mən bu nəsli 50-ci ildən tanıyıram. Rüfətin (Eldar Sabiroğlunun oğlu-E.P.) ana babası Tahir çox sanballı adam idi. O, Zəngibasar (ermənilər indi Masis qoyub-E.P.) rayonunun partiya komitəsinin katibi işləyirdi, çox vətənpərvər adam idi, millətini həddən artıq sevirdi. O qardaşlar elə idi. Onun bir qardaşı da var idi - Məhərrəm Bayramov - "Sovet Ermənistanı" qəzetinin redaktoru oldu. Açığı, mən Rüfəti tanımıram, heç görməmişəm də. Babasını tanıyıram, bilirəm ki, onun babası ilə mənim atam İrəvan Partiya Məktəbində bir yerdə oxuyurdular. Atam da Basarkeçər (Vardenis-E.P.) rayonunda 1-ci katib idi. Mən də İrəvanda Kirov adına Azərbaycan orta məktəbində oxuyurdum, kənddən gəlib onlarla qalırdım. Orda görürdüm ki, bunlar çox vətənpərvər fikirlər söyləyirlər, Əziz Əliyev, Topçubaşov haqqında maraqlı məsələlər danışırdılar. Eldar Sabiroğlu ilə də bir partiyanın üzvü olmuşuq, onun YAP-da xidmətlərini görmüşəm. Əvvəllər eşitmişdim ki, "Sovet Ermənistanı" qəzetinin müxbiri olub, qaçqınlar gələndə mən onu tanımışam. Eyni zamanda o, Eldar İbrahimov, mən deputat olduq.

***- Ancaq bu gün o, narazıdır, oğlu müxalifətə keçib. Bu vəziyyətdə haqlı kimdir, sizcə?***

- Mən bu məsələ barədə heç nə deyə bilmərəm. Çünki məni YAP-a yaxın buraxmırlar, nə qədər də çalışsalar, mən YAP-dan çıxmayacağam. Bu məsələ YAP-ın daxili işidir, oturub orda müzakirə etməli, hə-yoxunu deməli, mənfi-müsbətini təhlil etməlidirlər. Niyə etmirlər, bilmirəm.

***- Sizcə, manatın ucuzlaşması, neftin dəyərdən düşməsi ölkəmizə nə vəd edir?***

- Mən yalnız onu deyə bilərəm ki, kənd təsərrüfatının, aqrar sahənin geri qalması açıq-aydın görünür. Bu sahədə inkişaf olmayacaqsa, başqa məsələ barədə danışmağa haqqımız yoxdur.

***- Kənd təsərrüfatı naziri var...***

- Mən o nazirləri qınamıram.

***- Amma Eldar İbrahimovu qınadınız.***

- Eldar qanun hazırlayır.

***- Bəlkə münasibətlərinizdə problem yaranıb?***

- Nə problem? Bir yerdə o qədər yeyib-içmişik ki. Bir dəfə də deyib ki, Maksim Musayev YAP-ın üzvü deyil, cavabını vermişəm. Görürəm ki, artıq qocalıb, deyirəm getsin, yerini versin başqasına da. Gəlsin, mən onu "pensionerlər klubu"na qəbul edib, ona elə gözəl xidmət elətdirim ki, çayı, çörəyi də yerbəyer olsun. Bir dəstə qoca yığılıb ora, yerlərini istedadlı uşaqlara verməlidirlər. Müxbirlərin də bir mənfi cəhəti var, kimisə tənqid edəndə deyirsiniz yəqin aralarında nəsə olub. Ancaq mən YAP-ın yaranmasında onun xidmətlərini də sadaladım, ardınca tənqidi sözümü dedim. Demək, düşmən olmayılıq? Yox, qətiyyən. O qədər baş-ayaq vurub, mən dinmirəm, danışmıram. Əgər o, intervü verməsəydi, yenə dinməzdim. Görün nə deyir, "heç kəs heç kimin 1 manatını yeyə bilməz". Sən xalqın manatını yemisən e... Aqrar islahatı pis günə qoyandan sonra. Bunlar hər şeyi yuxarıların üstünə yıxırlar. Belə olmaz! Gəl ədalətli danışaq. Bizim prezident qədər ağır yük daşıyan yoxdur. Baxın, sutkada neçə saat işləyir, neçə ölkəyə gedir-gəlir, nə qədər qonaq qəbul edir, müqavilələrə imza atır. Prezidentimizin, cənab İlham Əiiyevin işlədiyinin 10 faizini də yox, beşcə faizini hər bir məmur işləsə, bizim respublikamız cənnətə çevrilər.

***- Bu gün gömrük və vergidə də şəffaflığın tətbiqinin zəruriliyindən daha çox danışılır. Hətta prezident də bu barədə fikrini dedi...***

- Gəlin, açıq danışaq. Mən Vergi və Gömrük Məcəlləsinə səs verənlərdən biriyəm. 4 ay müzakirə getdi, günlərlə, həftələrlə maddə-maddə müzakirə etmişik. Özü də Heydər Əliyev bu məsələlərə həddindən artıq diqqət yetirirdi. Mən 19 qanunun yazılmasında iştirak etmişəm. Bələdiyyələrlə bağlı qanunun hazırlanması ərəfəsində bizi bir neçə ölkəyə göndərdi. Deyirdi bax, bilin, bizim milli bələdiyyəmiz olmalıdır, sizi göndərirəm ki, ordan-burdan yaxşı şeyləri götürəsiniz. Ancaq bu Eldar İbrahimov bələdiyyələr haqqında bir cümlə işlətmir. Qeyri-neft sektoruna töhfə verəsi bir qurum da bələdiyyələr deyilmi? Bələdiyyələrin başını aparıb icra hakimiyyətinə bağlayıblar. İcra hakimiyyətləri bələdiyyələri çağırıb bir saat qapısında saxlayır. Biz belə qanun yazmamışıq, bizə Heydər Əliyev bunu deməmişdi. Sualınıza gəldikdə, gömrüklə vergi deyilmi bu millətə zülm edən? Bunlar ayılmalıdırlar. Vaxt gələcək bunlar cavab verəcəklər. Görürsən nazirlərimiz, nazirliklərdəki məmurlar necə cavab verir? Göydə Allah var, Allah hər şeyi tənzimləyir.



**"Vaxt gələcək bunlar cavab verəcəklər"**

❑ Elşad PAŞASOY



# Ən kədərli gündə lağlağı

**Samir SARI**

**Seyidlərin cəddi haqqı, əvvəlcə elə bildim, zarafat edirlər. Özü də bu barədə ilk dəfə ciddi bir politoloqun şərhində oxudum. Dedim, yəqin qardaş da qoşulub sosial şəbəkənin lağlağı, zarafatcıl, baməzə abonentlərinə, məzələnir, müasir elmi terminlərlə desək, mırtlaşır.**

Sonra gördüm, yox ey, saytlarda Azərbaycan parlamentində ABŞ-da insan haqlarının durumunu müzakirəyə çıxaracaqlar, hətta ola bilər ki, dünya hegemonuna qarşı sanksiya tətbiq etsinlər. Hər çey konqresmen Smitdən asılıymış.

Bir azdan yüzlərlə FB istifadəçisi fürsətdən istifadə edərək, bu layihəni hoydu-hoyduya götürdü, lağlağı ərşə dirəndi, rişxənd, istehza, sarkazm, ələsalma - hamısı bir-birinə qarışdı.

Nə də olmasa, biz optimist xalqıq axı, lətifə sevənik, deyib-gülməyə bir canıq, hər kədərli şeydə bir komik məqam tapırıq. Bu xüsusiyyətimizin meydanı açılmışdı.

Biri yazırdı ki, guya amerikalı konqresmenlər bu xəbəri eşitcək, çox kədərləniblər, sarsılıblar, hətta Konqresin "No smoking" elanı yapışdırılan yerlərində durub siqareti siqarətə calayıblar.

Başqa biri yazırdı ki, amerikalılara zülm olacaq, daha Mayamidən durub Nabrana, tətilə gələ bilməyəcəklər, Naxçıvanda istehsal olunan "Lifan" avtomobillərini almaqdan məhrum olacaq, öz "Ford"larına minməyə məcbur qalacaqlar.

Prezident Obamanın bu xəbərə görə üzüldüyünü yazanlar da vardı, qəhqəhə çəkib güldüyü yerdə çəkilmiş şəklini paylaşanlar da.

Bir sözlə, olaya ölkəmizdən verilən reaksiya çox qeyri-ciddi idi. Camaat nəyə görəsə burada gülməli nüanslar tapmışdı.

Amma bu, gülməli hadisə deyil, əziz soydaşlar. Dərindən düşünsək, oturub zırın-zırın ağlamalıyıq ki, gör, bizim adımızdan parlamentə hansı düşüncədə, ağıl-kamalda olan adamları seçiblər və onlar hansı işlərlə məşğul olurlar.

Yəni normal, ağlı başında olan adam da durub belə bir qanunvericilik layihəsi hazırlayarmı?

Bu, 2015-ci ilin ən qeyri-ciddi hadisəsidir. Bəlkə Şimali Koreyada, Venesuelada nəsə başqa qeyri-ciddi hadisə də olub, bilmirəm, amma bu unikal dərəcədə qeyri-ciddi hadisədir, özü də məhz hamımızı kədərə boğmalı olan hadisədir.

İmkanı olan adamlar bu hadisədən sonra bu cür deputatları olan ölkədən ağlaya-ağlaya qaçmalıydı.

Əslində, ABŞ da, qüdrətli Avropa ölkələri də hamımıza siyasi sığınacaq verməlidir. Gedərik, getmərik, özümüz bilərik, amma onlar bizə belə bir şərait yaratmalıdırlar, deməlidirlər, sizi bu cür adamlar idarə edirsə, yaşayış yerinizi dəyişməkdə sərbəstsiniz, gəlin bəri.

Rövşən Rzayev və Əli Hüseynov kimi deputatı olan ölkədə yaşamaqdansa, Alyaskada yaşamaq daha yaxşı olar. Tam ciddi deyirəm. Maqadanı da deyərdim, amma ora bir az soyuqdur, o gün 54 dərəcə şaxta olub. Üstəlik, prinsip etibarı ilə Maqadan elə bir ölkənin əyalətidir ki, bizim deputatlar bu cür qanun layihəsi hazırlamağı məhz o ölkədən öyrəniblər.

Bax, ona görə Əli Hüseynov belə deyir: "Əgər ABŞ-da müvafiq komitədə, daha sonra isə konqresdə Kristofer Smitin təqdim etdiyi qanun layihəsi qəbul olunarsa, biz də paralel addım atacağıq". Çünki ondan öncə bunu İvanov (şərti addır) demişdi. Rus deputatlar ABŞ-ın sanksiyaları ilə üzləşəndə hansı dili danışırdısa, bizimkilər də o ritorika ilə danışırlar, amma miqyası unudublar. Rusiya ərazisinə görə ABŞ-dan böyükdürsə, Azərbaycan hər şeyinə görə ABŞ-ın 50 ştatından ən balacası olan Men ştatından belə balaca və zəifdir.

Hələ deputatlar bir yana dursun, saray telekanallarında çalışan təbliğatçılar dəstəsi də fəaliyyətə başlayıblar, Almaniyanı dağıdıb-çökdürəndən sonra indi də ABŞ-a keçiblər. Bu gün-sabah hindulara qahmar çıxacaq, onların 200-300 il öncə rezervuarlara doldurulmasının, soyqırıma məruz qoyulmasının davasını aparacaqlar.

Bu gedişlə Harriyet Biçer-Stounun "Tom dayının daxması" əsəri yenidən çap olunacaq və bütün idarə müəssisələrə paylanacaq ki, zəhmətkeşlər vaxtilə Amerikada qaradərililərə necə zülm edildiyi barədə oxusunlar. Oxumasalar da, kitabı əllərində tutub televiziya kameraları önündə müsahibə versinlər, desinlər, Amerikanı görmüşük də, budur, burda yazıblar onların nə yuvanın quşu olduğunu...

Siz də oturub lağlağı edirsiniz... Çox kədərli durumdur, əziz həmvətənlər, II Dünya müharibəsindən bəri bu qədər qəm-qüssəli durumumuz olmayıb.

# Devalvasiya şoku marketlərdə "əriyir"

## Ərəstun Oruclu: "Azərbaycanda ictimai-siyasi sistemin bütün institutları sıradan çıxarılıb"

**Manatın qəfildən kəskin devalvasiyası əhali üçün böyük iqtisadi zərbə oldu. İnsanlar əllərində olan maddi resursların 50 faizindən məhrum oldular. Lakin xalqın davranışı gözlənildiyindən fərqli oldu. Əhali bu durumdan nə qədər narahat olsa da, etirazını meydanlarda deyil, sosial şəbəkələrdə üsyan püskürməklə bildirdi.**

Əllərində pulu olanlar isə qiymətlərin qaldırılmasını gözləmədən dükan-bazara axın etdilər. Paytaxtın ən iri marketlərində uzun növbələr yarandı. İnsanlar gündəlik ehtiyaclarından qat-qat artıq məhsul alaraq tədarük görməyə başladılar. Bunun qarşısını almaq üçün bir çox marketlər işıqları söndürüb, qapıları bağladı.

İnsanların bu cür davranışı cəmiyyət ekspertləri tərəfindən də birmənalı qarşılanmayıb. Əksər xarici ölkələrin, xüsusən də Avropa ölkələrinin təcrübəsinə nəzər salsaq, orada insanlar pensiyaların cüzi azalmasına və ya onların əleyhinə olan qərarlara dərhal küçələrə çıxaraq etiraz edirlər. Azərbaycanda isə insanlar etirazlarını ailədən, çayxana və sosial şəbəkələrdən kənara çıxartmırlar.

**Sual yaranır ki, devalvasiya qərarından sonra insanlar niyə meydanlara yox, marketlərə üz tutdu?**

**"Yeni Müsavat"ın sualını cavablandıran politoloq Ərəstun Oruclu bildirdi ki, bu, insanların tipik davranış nümunəsidir və bu davranışı tətikləyən ictimai-siyasi səbəblər də az deyil:** "Bu, cəmiyyətin tipik davranışıdır. Məsələn, devalvasiya qərarı verildi və insanlara xəbərdarlıq edildi ki, istehlak bazarı bahalaşacaq. İnsanlar bahalaşma başlamadan və ya pik həddə çatmadan əllərində olan vəsaitə uyğun olaraq daha çox ərzaq ehtiyatı toplamağa çalışdılar. Bu, tamamilə normal bir haldır. Fərd olaraq hər bir insanın baxış bucağından baxsaq, bu, təkcə Azərbaycan üçün xarakterik hal deyil. Məsələn, ABŞ-da Milad bayramı öncəsi ticarətdə yüksək endirimlərin həyata keçirildiyi "qara cümə" adlanan bir gün var. Həmin gün malların qiymətində 70-80 faizə qədər endirim olur. Həmin gün insanlar bir sutka əvvəldən gəlib marketlərin qarşısında növbələrə düzülürlər. Bütün gecəni gözləyirlər və səhər ilk olaraq mağazaya girməyə çalışırlar. Bu zaman marketlərin qarşısında nələrin baş verdiyini yəqin ki, hər kəs bilir, hətta orada dava düşür. Yəni bu təkcə Azərbaycan üçün xarakterik olan bir məsələ deyil. Mən deyərdim ki, bu hər bir ölkədə baş verir və insanların normal davranışıdır. Hər bir insan bugünkü real vəziyyəti, sabahkı məişəti haqqında düşünür və ilk növbədə marketlərə gedir. Ancaq bu marketlərdən alınan məhsullar, onlara xərclənən resurslar başa çatanda insanlar artıq başqa məsələlər haqqında düşünəcəklər. Növbəti mərhələdə onlar etiraz etməyə başlayacaqlar. Əvvəlcə bu passiv şəkildə baş verir. Bundan sonra həyat bir qədər də ağırlaşır və bu etirazlar qruplar arasına keçir. Ondan sonra hansısa siyasi, ictimai qüvvələr bu etirazları təşkilatlandırır və tədricən bu etirazlar küçə və meydanlara çıxır".



Ərəstun Oruclu

**Digər xalqların təcrübəsini misal çəkən Ərəstun Oruclu bildirdi ki, müxtəlif millətlərdə cəmiyyət psixologiyası fərqlidir və bunun təkcə etnik deyil, ictimai-siyasi səbəbləri də var:** "Azərbaycan xalqı hakimiyyətdən asılıdır. Çünki hakimiyyət insanlar üzərində nəzarəti həyata keçirir. Yunanıstanda və digər Avropa ölkələrində isə hakimiyyətə nəzarət xalqın əlindədir, onlar bu hakimiyyəti seçir. Yunanıstan Avropa ölkəsidir. Orada insanların hüquq və azadlıqlarını Azərbaycandakı qədər məhdudlaşdırmaq mümkün deyil. Səbəblərdən biri də budur. Bundan əlavə, həmin ölkələrdə xalqı təşkilatlandıran, meydanlara çıxaran partiyalar, təşkilatlar, müxalif qüvvələr var. Azərbaycanda isə ictimai-siyasi sistemin demək olar ki, bütün institutları sıradan çıxarılıb. Bunu edə biləcək güclü ictimai-siyasi potensialı olan qüvvə yoxdur".

**Ekspertin sözlərinə görə, Azərbaycanda da bir-iki aya insanların meydanlara çıxıb etiraz etməsi halları ola bilər:** "İnsanlarda bu gün də qəzəb var. Əhali bu gündə 50 faiz yoxsullaşdı. Deyirlər ki, bu devalvasiya, bahalaşma daxili bazara təsir göstərməyəcək, lakin bu doğru deyil. Bunu o ölkə deyə bilər ki, onun güclü daxili istehsalı olsun. Azərbaycanda isə istehlak bazarı 70-80 faiz idxaldan asılıdır. Üstəlik, bu idxal monopolistlərin əlindədir. Həm də monopolistlər yaranmış situasiyadan daha çox qazanmağa çalışırlar. Məhz buna görədir ki, bir sıra malların qiyməti hətta 2 dəfə artıb. Ancaq insanların resursları yoxdur. Onlar zinət əşyalarını, hansısa qiymətli mallarını satıb ərzağa xərcləyə bilərlər. Bu isə bir-iki aydan artıq çəkməz. Unutmayaq ki, hazırda qış mövsümüdür, enerjidaşıyıcılarına, ərzağa tələbat çoxdur. Yay bazarı ilə qış bazarı eyni deyil. Bu proses haradasa mart ayında, fevralın sonunda özünü büruzə verəcək".

**Nərgiz LİFTİYEVA**

# Dərmanların qiymətinə "dərman" - süni artıma imkan verilməyəcək

**Azərbaycan manatının dollara nisbətdə məzənnəsinin enməsi ilə əlaqədar olaraq ölkədə bəzi dərman preparatlarının qiymətlərində dəyişikliklər ola bilər.**

"Trend"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyasının icra katibi - sədr müavini, baş nazirin müavini Əli Əhmədov deyib. Baş nazirin müavininin sözlərinə görə,



bu qiymətlərin məzənnəyə uyğunlaşdırılması qaçılmazdır: "Qərarlaşmış qaydalara görə, Azərbaycanda dərmanların qiymətləri Tarif Şurası tərəfindən tənzimlənir. Məlum hadisə ilə əlaqədar olaraq qiymətlərə yenidən baxılacaq və məzənnədə baş verən dəyişikliyə uyğunlaşdırılacaq".

**Ə.Əhmədov bildirib ki, belə bir addımı atmaqla Azərbaycan hökumətinin məqsədi odur ki, Azərbaycan vətəndaşları dərmanların qiymətində müşahidə olunan süni qiymət artımından əziyyət çəkməsinlər:** "Buna nail olunub. Amma indi atılan addım ondan ibarət olacaq ki, Azərbaycana dərman idxal edən iş adamları ziyana düşməsinlər. Bu olmayacaq da. Yenə də optimal bir variant işlənib hazırlanacaq, dərmanların qiymətinin süni şişirdilməsinə imkan verilməyəcək".

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

**Manatın məzənnəsinin kəskin surətdə aşağı düşməsi və bunun ardınca müşahidə edilən qiymət artımı bütün ölkədə ciddi narahatlıq və narazılıq doğurmaqdadır. Əhali arasında passiv narazılıq açıq müşahidə edilir. Bir çox ekspertlər hesab edir ki, passiv narazılığın aktiv fazaya keçməsi etiraz dalğasının baş qaldırması ilə nəticələnə və bu da ölkəni heç də sonu yaxşı görünməyən proseslərlə üz-üzə qoya bilər. Odur ki, ekspertlər ölkədə hakimiyyətlə müxalifət düşərgəsi arasında dialoq mühitinin bərpa edilməsinin vacibliyini gündəmə gətirir.**

# Müxalifətdən hakimiyyətə dialoq çağırışı

## Mirmahmud Mirəlioğlu: “Azərbaycan naminə biz belə təşəbbüslərə açığıq”


Mirmahmud Mirəlioğlu

Bəs müxalifət hakimiyyətlə dialoqun vaxtının çatdığını düşünürmü, bunun üçün iqtidara müraciət edə bilərmi?

Qeyd edək ki, bu ilin əvvəlində Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla siyasi partiyaların görüşləri keçirilmişdi. Görüş üçün müraciət müxalifətdəki 8 partiya tərəfindən edilmiş, danışıqları isə birbaşa KXCP sədri Mirmahmud Mirəlioğlu aparmışdı.

**Mirmahmud Mirəlioğlu** “Yeni Müsavat”a açıqlamasında dedi ki, Azərbaycanın gələcəyi naminə yenə də belə təşəbbüslə çıxış etməyə hazırdır: “Azərbaycan naminə və öz hakimiyyətləri naminə iqtidar yaranmış vəziyyətdən daha çox narahat olmalıdır. Təəssüflər olsun ki, iqtidar heç bir çağırışı qəbul eləmir. Dialoqa ilk növbədə hakimiyyət təşəbbüs göstərməlidir ki, məsələ reallaşsın. Azərbaycan xalqı nə qədər dözümlü xalq olsa da iqtisadi durumunun getdikcə dözülməz olması onu hərəkətə gətirəcək. Xalqın həyəcan təzyiqini azaltmaqdan ötrü sosial şəbəkələr bir silah kimi hələlik kullanılır. Bu da uzun sürməz. Nə qədər ki, gec deyil, hakimiyyət ölkədə vətəndaş həmrəyliyi, dialoq mühiti yaratmalıdır. Bunun üçün atılmalı addımlardan biri ölkənin müxalifət qüvvələri ilə bir masa arxasında əyləşib yaranmış durumu müzakirə etmək, çıxış yollarını birgə müəyyənləşdirməkdir. Bu istiqamətdə təşəbbüslər, konkret addımlar olmalıdır. Biz öz tərəfimizdən bir daha bəyan edirik ki, Azərbaycan naminə belə təşəbbüslərə açığıq.

Təvazökarlıqdan uzaq olsa da xatırladım ki, bu ilin əvvəlində hakimiyyət təmsilçisi Əli Həsənovla siyasi partiyaların görüşü məsələsini birbaşa biz gündəmə gətirmişdik, 8 partiya adından rəsmi müraciət etmişdik. Danışıqları şəxsən aparmışdıq və məsələ müsbət nəticələnmişdi, Əli Həsənovla siyasi partiyaların 3-4 görüşü keçirildi. O təşəbbüs bizim idi və Əli Həsənovla danışıqları da mən aparmışdım. Hər kəsə bəllidir ki, bir neçə görüşdən sonra bu müsbət tendensiyanın qarşısı alındı. Amma indi ölkə və xalq üçün çox ciddi, məsuliyyətli mərhələ gəlib çatıb. Ona görə də dialoq qaçılmazdır. Azərbaycanın düşdüyü böhranlı vəziyyətdə siyasi qüvvələrin dəyirmi masa ətrafında əyləşməsi, vəziyyəti müzakirə etməsi lazımdır. Sosial-iqtisadi böhran bu gün bizi, əhalini vurursa, sonda ən böyük zərbəsi iqtidara dəyəcək. Bunun fərqində olsalar, ölkə və özləri üçün yaxşı olar. Açığı, mən inanmıram ki, sizin sualınızla, bizim cavabımızla dialoqu, görüşü gerçəkləşdirilsin. Əgər sizin sualınızın və mənim cavab zamanı dediklərimin qaldırılan məsələnin müsbət həllinə təsiri olacaqsa, daha yaxşı. Azərbaycanın naminə bu addım atılmalıdır. Addımı hakimiyyət atmalıdır".

**M.Mirəlioğlu sonda onu da dedi ki, bu ilin əvvəlində başlanan dialoqun dayandırılmasında Əli Həsənovun rolu olmayıb. Əli Həsənovun start götürən müsbət tendensiyanın dayanmasında marağı ola bilməzdi:** “Əli Həsənov bu işə ciddi şəkildə qoşulmuşdu və həmin prosesin gedişində onu səlahiyyətləri artırılaraq prezidentin köməkçisi vəzifəsinə də yüksəldildi. Amma bizim bildiyimizə görə, dialoq prosesinin dayandırılması hakimiyyət daxilindəki bir qrupun əməyinin nəticəsi idi. Bu məsələ Əli Həsənovluq deyil. Azərbaycanda dialoq mühitinin olmamasında maraqlı olan böyük bir xətt var və xətt hakimiyyətin içində yer alır. Bu xətt hakimiyyətlə müxalifətin bir araya gəlməsini istəmir, bunu əngəlləyir”.

❑ **E.SEYİDAĞA**

# 6 müxalif partiya əməkdaşlıq mərkəzi yaratdı

## İqtidara devalvasiya qərarına yenidən baxmaq çağırışı edildi

**Liberal-Demokrat Partiyasının (ALDP) qərargahında “Azadlıq-2015" seçki blokunun təsisçiləri olmuş Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev, Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev və ALDP-in sədri Fuad Əliyev arasında görüş keçirilib. Görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, ikinci devalvasiyadan sonra yaranmış durum və iştirakçı partiyalar arasında münasibətlərin perspektivi müzakirə edilib.**

Öncə ALDP sədri F.Əliyev ABŞ səfirliyində keçirdiyi görüş haqqında məlumat verdikdən sonra ilk məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Qarşılıqlı münasibətlərin tənzimlənməsinə dair məsələnin müzakirəsinin yekununda qeyd olunan altı partiyanın iştirakı ilə “Azadlıq” Siyasi Əməkdaşlıq Mərkəzinin yaradılması qərara alınıb.

Görüşün sonunda Azadlıq" Siyasi Əməkdaşlıq Mərkəzi adından bəyanat qəbul edilib. Bəyanatda deyilir ki, son illər dünyada müşahidə edilən qlobal maliyyə-iqtisadi böhran fonunda Azərbaycan hakimiyyətinin fəaliyyətsizliyi və zəruri addımları atmaması ölkə iqtisadiyyatını acınacaqlı vəziyyətə salıb. İqtisadiyyatın mütləq hissəsinin neft istehsalı və emalından ibarət olması, qeyri-neft sektorunun inkişafına yönəlik ciddi tədbirlərin görülməməsi nəticəsində ölkədə ümumi durum kifayət qədər gərginləşib: “Təxminən son iki il ərzində Qərb-Rusiya qarşıdurması səbəbindən dünya bazarlarında neftin qiymətinin tədricən ucuzlaşaraq artıq psixoloji həddən də aşağı düşməsi birmənalı neftdən asılı olan Azərbaycan iqtisadiyyatını və bank-maliyyə sistemini çöküş həddinə gətirib. Mənfi istiqamətdə gedən qlobal iqtisadi-maliyyə proseslərinin düzgün qiymətləndirilməməsi yekunda milli valyutamız olan manatın ABŞ dollarına nisbətdə sürətlə ucuzlaşması ilə nəticələnib. Azərbaycan hakimiyyətinin yaranmış ekstremal şəraitdə düzgün və operativ qərarlar vermək qabiliyyətində olmaması manatın bu il fevralın 21-də təqribən 33 faiz, dekabrın 21-də isə 50 faiz devalvasiyaya uğramasına, nəticə etibarilə milli valyutamıza olan etimadın itməsinə səbəb olub. Hakimiyyət fevralda olduğu kimi, dekabrda elan etdiyi devalvasiya zamanı da vətəndaşların hüquq və maraqlarını nəzərə almayaraq, milyonlarla soydaşımızın həyatını növbəti dəfə çətinləşdirmək yolunu tutdu. Ölkədə 2,5 milyon vətəndaşın banklara kredit borcunun olduğunu, əhalinin gəlirlərinin indeksləşdirilmədiyini və sürətli qiymət artımını qeyd etsək, hakimiyyətin bu qərarının hansı sosial gərginliyə yol açdığını təsəvvür etmək olar. Hesab edirik ki, ölkə iqtidarı bu qərarına yenidən baxaraq, vətəndaşların sosial hüquqlarının qorunmasına hədəflənmiş təcili addımlar atmalıdır”.

❑ **E.SEYİDAĞA**

# Gileylənməyin vaxtı olmasa da...



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də qibtə etməyin yeri deyil. Bəlkə də qibtə etdiklərimizin bizdən fərqi odur ki, onların, sadəcə, səsi çıxmır. Bəlkə də onların bizdən fəqri yalnız ondadır ki, onlar, sadəcə, için-için ağlayırlar...**

Ona görə də Rusiya mətbuatından oxuyanda ki, “Nezavisimaya qazeta”nın bugünlərdə 25 illik yubileyi olub, doğrusu, bimədim nə edim...

Əslində əlimdən bir şey də gəlmirdi. Nə edə bilərdim ki? Bircə onu bilirəm ki, həmin bu qəzet MDB məkanında analitik mətbuatın şahı idi...

Bir vaxtlar onu alır və acgözlüklə oxuyurduq. Amma bu da müvəqqəti oldu... Elə bir gün gəldi ki, bu qəzetin də alovu söndü - daha insanlar “Nezavisimaya...” varmı?" deyərək köşklərə cummadılar...

Təbii ki, əvvəlki kimi olmasa da, qəzet sanbalını saxlayır. Amma bunu çıxış yolu hesab etmək velosipedi avtomobil qismində görməyə bənzəyir...

Ən dəhşətlisi isə bizim öz durumumuzdur. Biz alqış sədaları altında Azərbaycan mətbuatını dəfn etdik. Birini bağladılar fərqinə varmadıq. Birini “asdılar”-"kəsdilər" fərqinə varmadıq. Kiməsə ev verdilər, kimisə deputat etdilər, biz də düşündük ki, xub, jurnalistika yaşayır! Amma yaşamırdı, təqib və təzyiqlərdən can verirdi! Biz isə onun iniltisini belə eşitmirdik...

İndi nə demək olar? İndi nə etmək olar? Təbii ki, heç nə! Necə deyərlər, qatar artıq gedib... Daha doğrusu, özümüz onu təmtəraqla yola saldıq...

Düşünmədik ki, jurnalistika söz demək, münasibət bildirmək, insanları ayıq-sayıq saxlamaq üçün bir vasitədir. Hətta düşünmədik ki, jurnalistika bizim üçün bir dolanışıq yoludur, ona görə ki, biz jurnalistik və çörəyimizi də həmin jurnalistikadan çıxarırıq...

Elə insanlarımız da yaman vəfasız çıxdı. Qəzetdən, mətbuatdan döndülər, ona arxa çevirdilər. Hamı bir ağızdan dedi ki, əşi, yazmaqdan nə çıxır? Heç kim demədi ki, axı, bəs yazmamaqdan, danışmamaqdan, göstərməməkdən, susmaqdan nə çıxır? Bunu heç kim demədi... Böyük-böyük dövlətlərdə qəzet və ümumiyyətlə, jurnalistika normal həyat ritmini yaşayarkən biz çox “irəli” getdik, dedik ki, əşi, adam nə qədər qəzet oxuyar?..

Əslində isə bu, “Adam nə qədər oxuyar?” demək idi. Dünyanın ən stabil çağlarında oxumağımızla elə də seçilmədik... Həmişə az mütaliə edən və yazı-pozuya elə də maraq göstərməyən xalqların siyahısında olduq...

İndi nə etmək olar? Əzilmiş, döyülmüş mətbuatın gücünü mən bu bir-iki ayda baş verən keşməkeşli proseslərdə gördüm. Hamı deyirdi ki, filan məsələni, o vaxt mətbuat yazırdı! Düzdür, burada məsuliyyətdən qaçmaq, hər şeyi mətbuatın üstünə atmaq cəhdi də vardı. Sanki demək istəyirdilər ki, bunları biz deməmişik, biz yazmamışıq, qəzetlər belə yazıb...

Bəli, oxuyan tapılsa, qəzetlər həqiqətən də çox şey yazır, çox mətləbləri araşdırır, çox şeyi çək-çevir edir. Amma oxuyan olsa... Fəqət, varmı oxuyan?

Yoxdur. Ya da çox azdır...

Bir ara düşündük ki, dəyişən formadır. Məzmun qalır... Amma bir də ayılıb gördük ki, forma da gedib, məzmun da... Heç internet versiyalarını da əməlli - başlı oxuyan yoxdur...

Bundan sonra nə olacaq? Heç nə! Zövqsüz, daha çox əyləncəyə meylli nəsil və yaxud da cəmiyyət yetişəcək... “Yetişəcək” deyəndə çoxdan yetişib. Baxın, telekanallarda səhərdən axşama qədər bayağı musiqi verilişləri gedir - bir neçə müğənni var, bu kanaldan o kanala gedir, o kanaldan bu kanala... Biz də bunları seyr etmək zorundayıq...

Nə edə bilərdik? Onu edə bilərdik ki, jurnalistikanı beş-üç nəfərə “diqqət”ə görə qurban verməzdik! Onu edə bilərdik ki, öz peşəmizi, bəlkə də həyatımızı əmtəəyə çevirməzdik. Bəli, çətin idi... Amma bilmək lazım idi ki, bu çətinlikləri bizim üçün yaradırlar. Özü də süni şəkildə yaradırlar ki, biz özümüzü, əqidəmizi siyasi hərraca çıxaraq! İndi nə etmək olar? İndi nə demək olar?..

Fikir verin, “nə yazaq?” demirik... Ona görə ki, yazmalı şey çoxdur. Amma bu ölkədə yazmamağın mükafatı var...

Hamı da bu “mükafat”ın dalınca qaçdı... Çünki bu, daha nəqd idi. Cəmiyyətin sevgisini və ehtiramını pula çevirmək olmur. Amma burada yazmamağa görə çox böyük mükafat vardı...

Fəqət, unutduq ki, onu da bircə dəfə verirlər, bizi cəmiyyətdən təcrid etmək və ayaqlarımızı yerdən qırmaq üçün...

Sonrası? Sonrası da çox asan olur. Qurumuş ağacları kəsmək asan olur... Heç kim demir ki, buna bax, yamyaşıl ağacı kəsir! Hamı deyir ki, əşi, qurumuş ağacdır da...



# Humanist devalvasiya

**Zamin HACI**
zaminhaci@gmail.com

**Alimlər araşdırma aparıblar, sən demə, humanist üsulla öldürülən balıq işgəncə ilə öldürülən balıqdan daha dadlı olurmuş. Daha detallı yazsam, sudan çıxarılıb uzun müddət havada saxlanan və "boğulub" ölən balıq stress keçirdiyi üçün ətində xeyirli maddələr (omeqa 3) parçalanır, dadı acılaşır, insan üçün qidalılıq önəmi azalırmış. Hətta çürümə və iylənmə də sürətlənirmiş. Sudan çıxarılan kimi başına zərbə vurulub öldürülən (alimlərin nəzərincə, "humanist üsul" budur) balıq isə dadını-tamını saxlayırmış.**

Fikrimcə, bizim şanlı hakimiyyətimiz devalvasiyada, manatın öldürülməsi, uca millətimizin canının alınması prosesində də humanist üsulu seçməklə xalqımıza hörmət elədi. Qiyməti yavaş-yavaş qaldırsaydılar xalqımız stress keçirərdi, yeməli olmazdı. İndi isə 21 dekabr zərbəsinin şokundan özünə gələ bilmir. Rahatca basıb yemək olar. Həm torda, həm yağda qızartmaq mümkündür.

Manatın dünyasını dəyişməsindən hardasa bir həftə qabaq uşağın məktəbində unikal əhvalat olmuşdu. Uşaq pul istədi, dedi sinif yoldaşlarımızla şəhərə gəzməyə gedəcəyik, sinif rəhbərimiz də bizimlə gedir. Açığı, sinfin kollektiv səfərinə, müəllimin də onlarla yaxınlığına ürəyimdə şad oldum. Fikirləşdim yəqin hansısa muzeyə, teatra-filana da baş çəkərlər. Marşrut isə mənim bütün gözləntilərimə satira idi: uşaqlar "28 mall" alış-veriş mərkəzində gəzməyə gedirmiş. Orda toyuq qanadları yeyəcəklərmiş. Paltar dükanına baxacaqlarmış. Və sairə. Özü də uşaqlar belə qərara gəlib, müəllim etiraz eləməyib, guya onların seçiminə buraxıb. *(Açığı, son vaxtlar ölkədə heç kimə inanmaq olmur - nə uşağa, nə böyüyə. İstəsəniz bu yazıya da inanmayın).*

Dünən bir dükana girib mallara baxıb çıxandan sonra birdən o səfər yadıma düşdü. Uşaqlar necə də uzaqgörəndir! Axı hazırkı qiymətlərlə bizim dükan-bazar elə muzey kimi bir yerə çevrilib. Eksponatlara, bahalı "sənətkarlıq" nümunələrinə pulsuz tamaşa etmək mümkündür. Bizə bu şəraiti yaratdığı üçün respublika rəhbərliyinə dərindən minnətdarlığımızı bildiririk. Baxmağa qoymasalar nə edərdik?

"Nə edək" söhbəti də tragikomik nəticələr yaradır. Devalvasiyanın səhəri günü bir tanış dükançı mənə dedi ki, niyə tərpənmirsiniz, müxalifət hara baxır və sairə. Tanımasan Babəkin nəslindən olduğunu zənn edərsən - o dərəcədə ağzından alov yağırdı. Dedim, vallah, mən 30 ildir icazəli-icazəsiz bütün mitinqlərə getmişəm, ancaq səni bir dəfə orda görməmişəm, indi xeyir ola? Dedi, doğru buyurursan, ancaq indi mitinq edin, gələcəyəm. Dedim, açığı, bu saat mənə mitinq lazım deyil, köhnədən bir-iki kilo qarğıdalı almışam, onları popkorn edib vəziyyətə tamaşa eləyəcəyəm. Nə desə yaxşıdır? "Qarğıdalını neçədən almısan?" Gör nə müdrik xalqdır...

Ta söz düşüb, bir dəyərli ziyalımızın da devalvasiyaya münasibətini öyrənsəniz yaxşı olar.

Keçən yazılarımdan birində millətə "filan vaxt yazdıq, qulaqardına vurdunuz" tipində minnət vuranlardan bezdiyimi yarızarafat qeyd etmişdim. Doğrudan da, köhnə palanı tökməyin faydasını görmürəm. Yazımda xüsusi vurğuladığım kimi: əgər xeyri olmayıbsa, yada salmağın nə xeyri var? Bundan sonra yazıçı-publisist Seymur Baycandan qəzəbli məktub aldım: "Bulvarı icarəyə verək" başlıqlı yazınızı oxudum. Ola bilsin hər kəsin "mən bunu demişdim, filan, falan" deməsi səni qıcıqlandırıb. Ancaq bir yada sal, Bayraq meydanına, Evrovizion-a, Avropa oyunlarına görə bizim nə qədər zəhləmizi töküblər, axmaq-axmaq fikirlər söyləyiblər. Bəziləri bilməyərəkdən, bəziləri bilərəkdən. Xalq doğrudan da bununla fəxr edirdi. İndi fəxr etdikləri şeyləri gözlərinə soxmaq lazımdır. Hər ... *(bu yerdə ziyalımız bir neçə söyüş yazıb - Z.H.)* bizə örnək göstəriblər. Niyə indi biz onlara "Gördünüz?!" deməyək? Gürcüyə lağ edirdilər. Bu nə şəhərdir deyirdilər. Pul qudurtmuşdu, gözləri ayaqlarının altını görmürdü, biz də yetimçə kimi qalmışdıq, onlara heç nə başa sala bilmirdik. Vəziyyət dəyişməsə belə davam edirdilər. Bir çox insanlar var ki, mövqelərini, vəzifələrini itirməyincə hansı səviyyənin adamı olduqlarını onlara əsla başa salmaq mümkün deyil".

Bu da xalqın ziyalısının mövqeyi... Axı problem ondadır ki, qəzet oxuyan adamlar çox az idi, onlar da vəziyyəti bilirdilər. O kəslər ki, indiki günü görmürdülər, onlar da qəzet oxuyan deyil. Özümüz deyib, özümüz eşidiriksə, "gördünüz?!" sözü kimə ünvanlıdır?

Əlbəttə, bankda hesab açıb özünə büst qoydurmaq istəyən yazıçıdan xalqa ayrı münasibət gözləyə bilmərik.



# Partiya sədrlərindən kimlər İlham Əliyevi təbrik etdilər?

## "Azərbaycanın əsarətə düşməməsi və ya Suriyaya çevrilməməsi daha çox sizin addımlarınızdan asılıdır"

**Dekabrın 24-də Azərbaycan Respublikasının prezidenti, eyni zamanda hakim Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin doğum günüdür.**

Bəzi müxalif və hakimiyyətyönlü partiyaların sədrləri ölkə.az saytında bu münasibətlə İlham Əliyevi təbrik ediblər. **ADP sədri Sərdar Cəlaloğlu** təbrikini bu şəkildə ifadə edib: "Hər bir siyasi partiya xalqın problemlərini həll etmək, xalqı xoşbəxt bir gələcəyə aparmaq, ölkəni daxili və xarici düşmənlərdən qorumaq, xalqa dost yığmaq üçün formalaşır. Onun liderinin də vəzifəsi xalqının dostlarının sayını artırmaq, düşmənlərinin sayını azaltmaqdır. Düşmənləri məğlub etmək, xalqının nüfuzunu qaldırmaqdan ibarətdir. Hər bir partiya sədri bu işləri görməlidir. Onun da Azərbaycan xalqı qarşısında xidmətləri nə dərəcədə öz xalqına dost yığmaq, nə dərəcədə xalqının düşmənlərinin neytrallaşdırılması ilə ölçülə bilər. Bu baxımdan prezident İlham Əliyevə bu vəzifələrin yerinə yetirilməsində müvəffəqiyyət arzulayıram".

**Ümid Pariyasının sədri İqbal Ağazadə isə təbrikində İlham Əliyevə uzun ömür, cansağlığı arzulayıb:** "Arzu edirəm ki, məsuliyyətdən və görəvdən doğan vəzifələrinin icrası üçün əlindən gələni etsin. Ən başlıcası müxalifətlə və cəmiyyətlə dialoqun qapıları həmişə açıq olsun".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirib ki, hələ Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-də olanda da İlham Əliyevi iki dəfə təbrik edib:** "Düşünürəm ki, dövlət başçısını partiya sədrinin təbrik etməsində hər hansı siyasi məqsəd güdmək lazım deyil. İlham Əliyevi ad günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Ona uzun ömür, cansağlığı arzulayıram. Düşünürəm ki, Azərbaycanda partiya sədrləri özündə siyasi iradə tapıb dövlət başçısını və digər partiya sədrlərini təbrik etməlidir. Burada bir siyasi məqsəd axtarılmamalıdır. Bu bir mədəniyyət nümunəsidir. Bir daha İlham Əliyevə uzun ömür, cansağlığı arzulayıram. Arzu edirəm ki, cəmiyyətin gözləntilərini doğrultsun".

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev isə İlham Əliyevi təbrik etməklə yanaşı, onun yolunda ölümə getməyə hazır olduğunu bildirib:** "İlham Əliyev çox ləyaqətli şəxsdir. İlham Əliyev bir partiya sədri kimi, prezident kimi yetişmiş bir insandır. İlham Əliyev milləti üçün həddindən artıq çox çalışan bir şəxsdir. İlham Əliyevə qardaş kimi arzum odur ki, həmişə yüksəklərdə olsun, həmişə millətinə xidmət eləsin. Hər an onun yanındayam, onun yolunda ölümə getməyə də hazıram. Çox təəssüf ki, İlham Əliyevin ətrafındakılardan bəziləri onun lazımi qədər qədrini bilmir. Ona cansağlığı, uzun ömür, ailə xoşbəxtliyi arzulayıram".

**ASDP sədri Araz Əlizadə bildirib ki, İlham Əliyev çox maraqlı bir prezidentdir. Onun fəaliyyəti ancaq Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə yönəlib:** "Ona uğurlar arzu edirəm. Allah ona cansağlığı versin. Dünyada iqtisadi, siyasi böhrandır. İlham Əliyev bütün gücünü sərf edir ki, Azərbaycanı bu böhrandan zərərsiz, xətərsiz çıxarsın. Bu yolda ona müvəffəqiyyətlər arzulayıram. Daim əlimizdən gələni edəcəyik ki, Azərbaycan dövləti möhkəmlənsin. Bu işdə ona yardımçı olmağa hazırıq".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı İlham Əliyevi doğum günü və qarşıdakı bayramlar münasibətilə səmimi qəlbdən təbrik etdiyini deyib:** "Cənab prezidentə möhkəm cansağlığı, ailə xoşbəxtliyi, uzun ömür və Azərbaycan dövlətinin çiçəklənməsi naminə atdığı möhtəşəm addımlarda yeni-yeni uğurlar arzulayıram".

**VİP sədri Əli Əliyev isə prezident İlham Əliyevi ad günü münasibətilə özünəməxsus formada təbrik etdi:** "Hörmətli, cənab Prezident! Ad gününüz münasibətilə Sizi təbrik edirəm. Yəqin ki, növbəti iliniz Sizin üçün ən çətin siyasi il olacaq. Azərbaycanın əsarətə düşməməsi və ya Suriyaya çevrilməməsi daha çox Sizin addımlarınızdan asılıdır. Bu işdə hamımıza uğur arzulayıram".

Digər bir neçə tanınmış müxalifət partiyasının sədrinə prezident İlham Əliyevi təbrik edib-etmədikləri ilə bağlı müraciət etdik. Onlar təbrik ünvanlamadıqlarını bildirdilər.

**Etibar SEYİDAĞA**

# Əfv siyahısı prezidentə göndərildi



**Azərbaycan İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun iclası keçirilib. Modern.az saytı xəbər verir ki, iclasda hazırda həbsdə olan şəxslərdən ibarət 22 nəfərlik siyahı hazırlanıb. Azay Quliyev İnsan hüquqları məsələləri üzrə İşçi Qrupunun parlamentdə təşkil olunan növbəti iclasında çıxışı zamanı deyib ki, Azərbaycan bütün məsələlərdə, o cümlədən insan hüquqları ilə bağlı məsələlərdə beynəlxalq təşkilatlarla işbirliyində, əməkdaşlığında maraqlıdır."Biz hər zaman da əməli şəkildə bu niyyətlərimizi ortaya qoymuşuq. Amma çox təəssüflər olsun ki, beynəlxalq təşkilatların da bizimlə əməkdaşlığa hazır olmadıqlarının şahidi olmuşuq. Biz bu İşçi Qrupunu da öz daxili ehtiyaclarımız üçün yaratmışıq, kiminsə istəyi və təzyiqi ilə yox. Biz bütün məsələlərdə, o cümlədən insan hüquqları ilə bağlı məsələlərdə də qeyri-hökumət təşkilatları, bütövlükdə vətəndaş cəmiyyəti ilə təmasda, dialoqdayıq. Bunun bizim işimizə, problemlərimizin həllinə çox böyük və müsbət təsiri var" - deyə, A.Quliyev daha sonra sözlərinə əlavə edib.**

Qeyd edək ki, İşçi Qrupunun siyahısı prezidentə təqdim olunacaq və ondan həbsdə olan həmin şəxslərin çəkilməmiş cəzalarının əfv edilməsi xahiş olunacaq. Siyahıda hazırda həbsdə olan Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri İntiqam Əliyev, jurnalist Pərviz Həşimli, "REAL" hərəkatının rəhbəri İlqar Məmmədov, "Seçki" Monitorinq Mərkəzinin rəhbəri Anar Məmmədovun və başqalarının adları var.

Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyası işini yekunlaşdırıb. Komissiyaya daxil olan müraciətlərlə bağlı yekun siyahı prezidentə təqdim olunub.

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

**ABŞ-ın Azərbaycandakı səfirliyi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayevin hazırladığı "ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" qanun layihəsinə münasibət bildirib.**



# ABŞ-a qarşı qanun layihəsini hazırlayan deputat danışdı

## "Bu, Azərbaycan hökumətinin deyil, bir millət vəkilinin mövqeyidir"; Amerikanın Bakıdakı səfirliyindən reaksiya

**ABŞ səfirliyinin mətbuat xidmətinin rəhbəri Mehdi Hüseynquliyev "Yeni Müsavat"a bunları deyib:** "Biz qanun layihəsini hələ görməmişik. Lakin biz həmişə Azərbaycanla insan hüquqları məsələləri üzrə müzakirələrin aparılması imkanlarını alqışlamışıq. Heç bir ölkə mükəmməl deyil. İnsan haqları və demokratik prinsiplərin qorunmasının təmin olunması, təkmilləşdirilməsi sahələri davamlı dialoq və təhlilin aparılmasını tələb edir. Biz hər iki ölkənin faydası naminə bu məsələlərlə bağlı səmimi dialoqa açığıq". Qeyd edək ki, azərbaycanlı deputat Amerika Birləşmiş Ştatlarının (ABŞ) Helsinki Komissiyasının sədri konqresmen K.Smit tərəfindən ABŞ Konqresinə təqdim edilən Azərbaycanda yüksək vəzifəli məmurlara sanksiyaların tətbiq olunması ilə bağlı "Azərbaycan Demokratiya aktı" adlı layihəyə cavab olaraq qanun layihəsi hazırlayıb. Qanun layihəsində ABŞ rəsmilərinə və şirkətlərinə qarşı sanksiya tətbiqi ilə bağlı təkliflər əksini tapır. "Dağlıq Qarabağın azərbaycanlı icması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Rövşən Rzayev qəzetimizə müsahibəsində mövqeyinə haqq qazandırdı:

**- Rövşən bəy, ABŞ-a qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsinin müəllifi kimi nə düşünürsünüz, bu cür sərt dildə hazırlanan layihə Azərbaycana baha başa gəlməz ki?**

- Bilirsiniz, bu gün Azərbaycanın ən dəyərli varlığı onun azadlığı və müstəqilliyi ilə bağlıdır. Əgər biz bu gün bununla bağlı mübarizə aparmağa hazırıqsa, digər məsələlərə fikir verməməliyik. Burada Azərbaycanın müstəqil dövlət olduğunu, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu, 1 milyon qaçqın və köçkünün problemlərini, Xocalı soyqırımının törədilməsini biz heç bir halda yaddan çıxara bilmərik. Mən uzun müddətdir bu problemlə bağlı çalışıram və bir çox halların şahidi olmuşam. Mən 2009-cu ildə Dağlıq Qarabağda olmuşam, separatçı rejimin rəhbəri Bako Saakyanın şüuru ilə tanışam. İki dəfə Ermənistanda olmuşam, Serj Sərkisyanla ünsiyyətdə olmuşam, onun intellektual səviyyəsinə bələdəm. Bu, mənimçün qaranlıq bir məsələ deyil ki, deyim nədənsə məlumatım yoxdur. Təbii ki, əsas məsələ danışıqlar prosesində, prezidentlər səviyyəsində həll olunur, pərdəarxası ki, məsələlərdən tam məlumatlı deyilik.

**- Ancaq bütün bunlar sizin hazırladığınız sənədin predmetini təşkil eləmir. ABŞ Konqresinə təqdim olunan sənəddə də xüsusi vurğulanıb ki, bütün bunların Dağlıq Qarabağla bağlı ABŞ-ın siyasətinə aidiyyəti yoxdur.**



**Rövşən Rzayev:** "Azərbaycan hökumətindən mənə heç kim heç nə deməyib"

- Yox, elə deyil. Bilirsiniz necədir? Pərdəarxası məsələlər qaldırılıb. Məsələ bundan ibarətdir ki, əgər Konqres təqdim olunan layihəni qəbul etsə, deməli, Konqres səviyyəsində qəbul olunur ki, Azərbaycanda insan haqlarının vəziyyəti mənfidir. Belə olan halda biz ki, Azəbaycanın ərazi bütövlüyü çərçivəsində ermənilərə ən yüksək status təklif edirik, onu da uzun müddətdir Sərkisyan, Köçəryan və qeyriləri Azərbaycanda insan haqları ilə bağlı problemin mövcud olduğunu bütün dünyaya çatdırırlar. Beləliklə də erməni lobbisinin təsiri altında konqresmen Smit bunu yazıb verirsə və bunu təsdiq edirlərsə, qərar layihəsini Konqresdən də keçirirlərsə, belə çıxır ki, həqiqətən də Azərbaycanda yaşamaq qeyri-mümkündür, Dağlıq Qarabağ ermənilər heç bir halda Azərbaycanın tərkibində yaşaya bilməzlər, çünki onlar sülhsevərdirlər, amma biz mənfi vəziyyətdə qalırıq.

**- Amerika kimi nəhəng, dünya siyasətinə təsir etmək gücünə malik dövlətlə sanksiya dili ilə danışmaq nə dərəcədə doğrudur? Bir sıra hallarda ABŞ rəsmilərinin hansısa ölkəyə səfər etməsi həmin dövlətin aktivinə yazılır. Siz isə Amerika hökumət təmsilçilərinə sanksiya tətbiq olunmasını istəyirsiniz. Bu, ölkəmizə nə verəcək?**

- Azərbaycan hökuməti ilə Amerika hökuməti arasında çox sıx işbirliyi var. Bu, Azərbaycan hökumətinin deyil, bir millət vəkilinin mövqeyidir. Mən təklifimi irəli sürürəm, parlament, hökumət nə cür reaksiya verəcək, bu, mənim işim deyil. Bir tərəfdən Amerikadan konqresmen bu cür layihə irəli sürüb, mən də onun qarşılığında öz düşüncələrimi ortaya qoyuram. Amerika həmsədr dövlətlərdən biridir, ancaq biz nə ondan, nə Rusiya, nə də Fransadan dəstək, ədalətli mövqe görmürük. Xüsusilə də son zamanlar Uorlikin separatçı rejimin təmsilçiləri ilə, Saakyanla görüşü məni çox narahat edib. Mən İcma xətti ilə Fransada, digər Avropa dövlətlərində də olmuşam. Tədbirlərin rəsmi hissəsində onlar başqa cür danışırlar. Qeyri-rəsmi hissədə isə Azərbaycanın haqlı olduğunu bizə deyirlər.

**- Siz nədən indiyə qədər Rusiya haqqında anoloji sənəd hazırlamayıbsınız?**

- Mən həmişə öz çıxışlarımda Rusiyanın mövqeyi ilə bağlı iradlarımı bildirmişəm. Həmişə demişəm ki, Dağlıq Qarabağ problemində heç zaman Azərbaycan Ermənistana məğlub ola bilməzdi, əgər 366-cı alay Azərbaycanın əleyhinə çıxış etməsəydi.

**- Amma Rusiya rəsmilərinə qarşı sanksiya təşəbbüsünüz olmayıb...**

- Elə bir ehtiyac olmayıb. Olsa, mən dərhal buna da öz reaksiyamı bildirərəm.

**- Elə bu il Rusiya Ermənistana 200 milyonluq silah yardımı etdi...**

- Bilərəm, ondan qabaq da 1 milyardlıq yardım edib. Mən onların hamısı ilə bağlı bəyanat vermişəm. Mənimçün heç bir fərqi yoxdur, hansı dövlətdən Azərbaycana təhdid gəlsə, onunla bağlı mövqeyimi ortaya qoymuşam, bundan sonra da qoyacağam.

**- Deputat həmkarlarınız da sizin layihəni birmənalı qarşılamayıb. Məsələn, Fazil Mustafa Amerika ilə konfrantasiya tərəfdarı olmadığını qeyd edib.**

- Ola bilər, əlbəttə ki, hərənin öz fikri, mövqeyi var. Mən bütün mövqelərə hörmətlə yanaşıram. Hesab etmirəm ki, atdığım bütün addımlar düzgündür. Mən səlahiyyətlərim çərçivəsində layihə təqdim etmişəm.

**- Bu, Azərbaycanın əleyhinə işləməz ki? Məsələn, ermənilər bundan Bakı ilə Vaşinqton arasındakı münasibətləri gərginləşdirmək üçün sui-istifadə edə bilərmi?**

- Kim necə istifadə edəcək, mən bilmirəm. Mən öz icmamın adından çıxış edirəm. Yəqin ki, Azərbaycan hökuməti, ölkə rəhbərliyi bu məsələ ilə bağlı öz mövqelərini bildirəcəklər.

**- Azərbaycan hökumətindən bu layihənizə reaksiya verilibmi?**




- Yox, mənə heç kim heç nə deməyib.

**- Daha yaxşı olmazdımı ki, Azərbaycanın parlament nümayəndə heyəti ABŞ-a ezam olunardı və konqresmenlərlə danışıqlar yolu ilə münaisbətlər çözülərdi? Vəziyyəti bəlkə onda Azərbaycanın xeyrinə dəyişmək mümkün idi, nəinki aqressiv tonla?**

- Mən böyük məmnuniyyətlə orda da öz mövqeyimi səsləndirməyə hazıram.

**- Bəs konqresmen Smitlə birbaşa əlaqə yaradıb onunla polemikaya girmək istəmisinizmi?**

- Mən buna çalışmamışam. O, bizim əleyhimizə bu cür sənədləri verib, əgər istəyərsə, mən böyük məmnuniyyətlə konqresmen Smitlə müzakirələrə hazıram. Ona görə layihəmdə var ki, cənab Smit, 1 milyon insanın haqqı pozulub, cənab Smit, Xocalı soyqırımı baş verib, ancaq ondan bir dənə bəyanat eşitməmişik. Nə təhər oldu ki, birdən-birə hər şey onun yadına düşdü?

**- Bakıdakı Amerika səfirliyinin mövqeyi ilə tanışsınız?**

- Bəli, oxudum, çox normal da qarşıladım.

**- Sənəd nə zaman komitədə müzakirə olunacaq?**

- 29 dekabrda birbaşa parlamentə təqdim edəcəyəm.

**- Sizin qərar layihəsinin qəbulu, ABŞ-la gərginləşən münasibətlər Azərbaycanda əfvlə bağlı gözləntilərin üstündən xətt çəkə bilərmi?**

- Problem də ondadır ki, Azərbaycan dövləti özü öz müqəddəratını həll edir. Amma bu kimi sənədlərlə dünyaya çatdırırlar ki, guya təzyiq nəticəsində əfv fərmanı verilir. Hər il möhtərəm cənab prezident əfv fərmanını imzalayır. Bu dəfə bunlar niyə ayrı-ayrı məsələləri bir-birinə qatır, bilmirəm. Mən əfv fərmanının olacağını gözləyirəm.

**- Qarabağ separatçısı Vaşinqtonda görüşlər keçirdi. Bəs Azərbaycan icması niyə ABŞ Konqresinə tədbirlər, görüşlər keçirmək üçün müraciət etmir?**

- Azərbaycan icması olaraq dəfələrlə həmsədrlərə, Minsk Qrupu çərçivəsində bütün prezidentlərə müraciət etmişik. Təəssüflər olsun ki, heç birindən cavab almamışıq. Böyük məmnuniyyətlə Konqresdə görüşlər keçirmək istərdim. Amma Amerikadakı erməni lobbisi həddən artıq imkan sahibi olduğu üçün bunu edə bilər. Bizim icmanın isə elə böyük imkanı yoxdur. Biz onu bacarırıq ki, məktub yazıb cavab gözləyək, heç kimdən cavab ala bilmirik, bu, bizi çox narahat edir ki, bir belə insanın müqəddəratına biganə qalırlar. Amerikanın özündə insan haqları ilə bağlı bir çox problemlər var, amma Smit nədənsə Azərbaycanı hədəfə alıb. Təəssüf ki, Amerikada Azərbaycanın əleyhinə işləyən həmvətənlərimiz də var. Onlar dərindən düşünsələr, bu mövqedən əl çəkərlər...

❑ **Elşad PAŞASOY**

**Manatın devalvasiyası əhali arasında ciddi narazılıq yaradıb. Süni bahalaşma və bunun fonunda hökumətə olan qınaqlar gündəmdə əsas yeri tutur. Bəs görəsən, hər zaman hökumətin addımlarını müdafiə edən qatı iqtidarçıların bu məqamda düşüncələri necədir? Onlar bu dəfə hansı arqumentlərlə müdafiə taktikası qururlar?**

# Hökumətin qatı müdafiəçiləri... yenə müdafiə mövqeyində



**Bəxtiyar Sadıqov:** “Azərbaycan iqtidarının bu proseslərdə zərrəcə günahı yoxdur”



**Fəzail Ağamalı:** “Bu məqamda Azərbaycan hökumətini qınamaq ədalətsizlik olardı”

“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, hələ də iqtidarı qatı müdafiə mövqeyində qalır. Müsahibimizin sözlərinə görə, əgər insanların gəliri azalırsa, onların həyat səviyyəsinə təsir edən dəyişiklik baş verirsə, onların narazı qalmasında qeyri-adi heç nə yoxdur: “Bu günə qədər maaşı ilə yaxşı yaşayan, hətta arxaya müəyyən ehtiyat ata bilən insanlar müəyyən çətinliklə üzləşə bilirlərsə, bu narazılıqlarını bu və ya digər formada - deyinməklə, şikayətlənməklə bildirirlərsə - bu, normaldır. Amma məsələ bundadır ki, bu gün dolların məzənnəsini qaldıran, manatın qiymətini aşağı salan Azərbaycan iqtidarı deyil. Heç neftin qiymətini də biz endirməmişik. Azərbaycan xalqı çox ayıq xalqdır, müstəqillik dövründə çox mərhələlərdən keçib”.

Müsahibimiz xatırlatdı ki, sovet dövründən sonra inflyasiya olacağı ilə bağlı xəbərlər yayılmışdı. Həmin vaxt da insanların cibinin dolduğunu deyən B.Sadıqov bircə dəfə bazarlıq edəndə ciblərin boşaldığını vurğuladı: “Bunu öz üzərimizdə yaşayandan sonra məzənnənin düşməsi, inflyasiyanın nə olması, dolların manata ekvivalentini öyrəndik. Bunu Azərbaycan xalqı artıq bilir. Bu dəqiqə dünyada böhran var, artıq 3-cü dünya müharibəsinin başlanma təhlükəsi mövcuddur. Dağılmış Misir, Liviya, dağılmaqda olan Suriya, ölkəsinin bir parçası alınmış Gürcüstan, Ukrayna var. Dünyada bu proseslər gedir. Bir böyük okean kimi çalxalanır dünya. Bunun balaca Azərbaycana təsir etməməsi qeyri-mümkündür. Neftin qiyməti niyə aşağı düşür, bilirik. Hansı oyunlar gedir, xəbərimiz var. Azərbaycan iqtidarının bu gedən proseslərdə zərrəcə günahı yoxdur. Azərbaycan iqtidarı çalışır ki, həm dövləti, həm də Azərbaycan xalqını bu vəziyyətdən çıxarsın”.

B.Sadıqov dedi ki, “Azərbaycan” qəzeti də bu problemin içindədir. Onun sözlərinə görə, işçiləri tez-tez ona müraciət edərək, vəziyyətdən çıxış yolu istəyirlər, təkliflər səsləndirirlər: “Deyirəm ki, mən öncə redaksiyanın taleyini düşünürəm. Vəziyyət gərgin, çətin olanda dövlətin rəhbəri xalqı nə qədər çox istəsə də, dövlətin maliyyəsini qorumaq, bu təlatümlərdən dövləti çıxarmaq üçün addımlar atmalıdır. İqtidarı da anlayıram, dünyada gedən proseslərdən də baş çıxarıram. Amma dalbadal dövlət başçısı addımlar atır. Dövlət bu vəziyyəti öz axarına buraxmayıb”.

Müsahibimiz məhz bu səbəbdən hakimiyyətin qatı müdafiəçisi mövqeyini saxladığını dedi. Bildirdi ki, hadisələrin səbəbini bilməsi obyektiv nəticə çıxarmasına yardım edir: “Elə bir nigarançılığım yoxdur ki, filan addımı atmalıydı, amma atmadı. Bilirsiz ki, fillər dalaşanda otlar əzilir. Allah-təala bizə o fillərin davasını göstərməsin”.

Deputat Fəzail Ağamalı da bildirdi ki, ölkə prezidentinin son çıxışında devalvasiyanın səbəbləri açıq şəkildə göstərilib. Onun sözlərinə görə, neft amili ilə ABŞ-ın dolların məzənnəsini qaldırması, ona yeni yanaşma dollar məkanında olan bütün ölkələrdə devalvasiyanı mütləq edib: “Azərbaycan manatı xeyli dərəcədə neft amili ilə bağlıdır. Dünyada neftin qiymətinin düşməsi, getdikcə dərinləşən iqtisadi, maliyyə və siyasi, hərbi böhran Azərbaycandan da yan ötə bilməzdi. Çünki Azərbaycan dünyanın bir parçasıdır. Neftin qiyməti çox böyük sürətlə aşağı düşür. Azərbaycan da olub-qalan valyuta ehtiyatını qoruyub saxlaya bilməzdi. Bu, bizim olduqca strateji xarakter daşıyan üstünlüyümüzdür ki, valyuta ehtiyatımız tükənməsin”.

F.Ağamalı bildirdi ki, bu proseslərin fonunda atılan addım doğru addımdır. Onun fikrincə, bu məqamda Azərbaycan hökumətini qınamaq ədalətsizlik olardı: “Gərək 5-10 il qabaq qeyri-neft sektorunun inkişafına daha çox diqqət yetirəydik. Azərbaycan prezidentinin bununla bağlı ciddi xarakterli çağırışlarına zamanında daha böyük əhəmiyyət verilməli idi. Amma mən Azərbaycanda ciddi sosial-iqtisadi kataklizmlərin olması qənaətində deyiləm. Azərbaycanın potensialı var. Daxili istehsal sayəsində zəruri ərzaq məhsulları tələbatlarımızı özümüz ödəyə bilərik. Amma yeri gəldi-gəlmədi, dollardan asılı olmayan sahələrdə də qiymətlər fantastik şəkildə artırılır. Daha çox varlanmağa çalışanlarla güzəştsiz mübarizə metodlarından istifadə olunmalıdır”.

❑ **Sevinc TELMANQIZI**

# “Bəzi deputatların maaşlarını kəsmək məqbul olardı...”

## İqtidaryönlü deputatın söylədiyi bir cümlə geniş müzakirəyə səbəb olub; Zahid Oruc hansı deputatların bostanına daş atıb?

**İqtidaryönlü deputat Zahir Orucun parlamentin ilk iclasından sonra səsləndirdiyi bəzi fikirlər hələ də geniş müzakirə olunur. O qeyd edib ki, Milli Məclisdə daim etimadı doğrultmayan şəxslər olub.**

Z.Orucun bu fikirləri bir aydır ki, ölkə cəmiyyəti və mətbuatında gündəm olub. İqtidaryönlü deputat etimadı doğrultmayan şəxslər dedikdə kimləri nəzərdə tutub? Hər kəsin cavabını axtardığı sual məhz budur. Müxtəlif cür fərziyyələr var. Çoxları hesab edir ki, Z.Oruc bu fikirləri qocaman deputatlar barədə səsləndirib, bir növ onların 4 və ya 5-ci dəfə mandat qazanmalarına bu formada etiraz edib. Bu fikirlərin Milli Məclisin yeni deputatları barədə səsləndirildiyini də düşünənlər az deyil. Deputat parlamentin iclaslarına qatılmayan, iclasların tez bitməsini istəyən üzvlərin də bostanına daş atıb.

Bütün bu suallara cavab tapmaq üçün iqtidaryönlü deputatın özü ilə əlaqə saxladıq. Z.Oruc geniş müzakirə doğuran bir cümlənin tarixçəsinə belə aydınlıq gətirdi: “Həmkarınız məndən deputatların əmək haqlarının qaldırılıb-qaldırılmayacağına münasibət soruşub. Orada söyləmişdim ki, Milli Məclisin və digər strukturların əsas vəzifəsi manatın dollar qarşısındakı devalvasiyasının nəticələrini aradan qaldırmaqdır. Bildirmişdim ki, belə bir vəziyyətdə deputatların maaşlarının qaldırılması cəmiyyətdə etirazlar və ittihamlarla qarşılanar. Qeyd etmişdim ki, parlamentin işinə töhfə verməyən, iclaslara qatılmayan, seçiciləri qarşısında öhdəliklərini yerinə yetirməyən deputatların maaşlarını kəsmək daha məqbul olardı.




Nəinki əksinə addımlar atmaq. Bir sıra hallarda etiraf etmək lazımdır ki, bizneslə bağlantısı olan bəzi şəxslər həmkarımızdır. Bu fonda onların son devalvasiyadan qazandığına da şübhə yoxdur. O fikirlərə də aydınlıq gətirmişdik ki, kiminsə var-dövlətini saymaq fikrimiz yoxdur. Sadəcə, bildirmişdim ki, bu boşluqları doldurmaq üçün sürətli addımlar atmaq lazımdır. Niyyətimiz kimlərəsə qarşı olmaq, onların aldıqları maaşların əsaslı olub-olmamasını qabartmaq deyildi. Əsas ağırlıq yükünü ehtiyaclı insanlara yönəlik tədbirlər üzərində qurmuşdum. Bu mövqeyimdə yenə də qalıram”.

Z.Oruc fikirlərindən doğan müzakirələrə də aydınlıq gətirdi: “Hər bir fikrə hörmətlə yanaşıram. Fikirlərimə qarşı kimsə mövqe göstərəcəksə, normal qarşılayacam. Parlamentdə çoxfikirlilik tərəfdarıyam. İclasların debat, diskussiyalar şəklində keçməsini istəmişik. Bundan heç bir narahatçılığımız yoxdur. Niyyət deputatlar arasında qarşıdurma yaratmaq, qanunvericilik baxımından kimlərinsə məvaciblərinə qarışmaq deyil. Təəssüf ki, bu belədir. Kiminsə seçicisi yerinə özümüzü qoyub, onların fəaliyyətlərini dəyərləndirmək fikrindən də uzağıq. Bir daha bildirirəm ki, fikirlərimə əks fikir söyləyənlərin şəxsiyyətləri üzərindən hansı gəzişmələr etmirik. Niyyətimiz başlıca olaraq, bəzən parlamentdə kürəyimizin arxasından üzərimizə ciddi bir basqı ilə gələn və iclasları tez bitirməyə çalışan, siyasi diskussiyalara, debatlara girməyən, o cümlədən kiçik bir rolu olmayan insanlara mövqeyimizi göstərmək idi. Şükürlər olsun ki, parlamentin ümumi əmək haqqı fondunu, onun üzərindəki sərəncam vermə hüquqlarını daşımırıq. Amma orada da söyləmişdim ki, mandatı qazanmaqla iş bitmir. Cəmiyyətin rəğbətini qazanaraq, ona layiq olmaq gərəkdir. Formal bir Milli Məclisin heyətinə düşüb, orada hansısa bir əmək haqqına düşmək məsələnin rəsmi tərəfidir. Mənəvi tərəfi isə fəaliyyətlə bağlıdır”.

İqtidaryönlü deputat parlamentin iclaslarına qatılmayan üzvlər barədə də danışdı: “Gəlməyənlər var. Amma iclaslarda iştirak etmək məsələni həll etmir. Ən önəmli məsələ Milli Məclisin işində, ictimai-siyasi problemləri tribunalara daşımaqda, ölkənin beynəlxalq əlaqələrində rol oynamaqda, ölkə rəhbərinin yürütdüyü siyasəti cəmiyyətə çatdırmaqda, onu təqdim etməkdə rol oynamaqdır. Parlament üzvlüyü bunu özündə ehtiva edir”.

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# PKK Ermənistanın və Rusiyanın yeni müttəfiqi rolunda

## Azərbaycan torpaqlarında öldürülən işğalçı əsgərin tabutu PKK bayrağına büküldü - təsadüf, yoxsa? Həmsədrlərin passivliyi savaş risklərini artırıb; Qarabağda hibrid müharibə gerçək müharibəyə keçə bilər, əgər...

**Prezidentlərin Vyana görüşünün atəşkəs rejiminə, gözlənildiyi kimi, hər hansı ciddi təsiri olmadı. Dağlıq Qarabağdakı təmas xəttində gərginlik hansı həddə idisə, Yeni il ərəfəsi təxminən elə də qalır - yəni yüksək. Bunun da başlıca səbəbi görüşdə heç olmasa, şifahi anlaşmanın belə əldə olunmaması, birgə hər hansı bəyanatın qəbul edilməməsi idi. Analitiklərin doğru qeyd etdikləri kimi, Vyana görüşü yalnız ATƏT-in Minsk Qrupunun turist həmsədrlərinin işinə yaradı. Onlar heç olmasa, ilsonu müəyyən fəaliyyət görüntüsü yaradıb "rahat nəfəs" ala bildilər.**

Bundan isə sülh prosesi çətin ki, fayda götürsün. Əksinə, gerçək budur ki, həmsədrlərin passivliyi münaqişə zonasında müharibə risklərini ilbəil artırmaqdadır. Ərazisinin 20 faizi erməni işğalı altında olan Azərbaycan isə sözsüz ki, əbədi şəkildə bununla barışa bilməz. Öz ərazilərini hərb yolu ilə azad eləmək hüququ isə BMT Nizamnaməsində birmənalı şəkildə əksini tapıb. Üstəgəl, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair qəbul elədiyi 4 məlum qətnamə ölkəmizin öz sərhəd bütünlüyünü təmin eləməsi üçün əlavə hüquqi əsas yaradır.

Başqa sözlə, atəşkəsi pozmaq da, təcavüzkara qarşı müharibəyə başlamaq da Azərbaycanın müstəsna hüququdur və Ermənistandan fərqli olaraq, buna görə heç kim onu qınaya, bu hüququ onun əlindən ala bilməz. O ayrı məsələ ki, uğurlu hərbi əməliyyatlara başlamaq üçün Bakı bəzi regional və beynəlxalq şərtləri, risk və reallıqları, o sırada Rusiya və Türkiyə amillərini, hazırkı Rusiya-Türkiyə münasibətlərini ciddiyə almaq zorundadır.

***

Belə görünür, işğalçı tərəf də Azərbaycanın nə vaxtsa müharibə haqqından istifadə edəcəyinin yaxşı fərqindədir və bundan narahatdır. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibinin "artıq atəşkəs rejimi yoxdur, hibrid müharibə gedir" açıqlaması bu narahatlığın əyani təzahürü sayıla bilər. **Hərçənd erməni politoloq Manvel Sərkisyan** onun fikri ilə, və "hibrid müharibə" termini ilə razılaşmır.




Onun sözlərinə görə, hibrid müharibə dövlətlərin orduları arasında aparılmır: "Bu - mövqe müharibəsidir. Ancaq cəbhə xəttindəki son hadisələr nəticəsində faktiki surətdə hər iki ölkə üçün mürəkkəb vəziyyət yaranıb. Çünki hazırkı beynəlxalq şəraitdə hətta bu cür hərəkətlər də dünyada fərqli dəyərləndirmələr alır. Eyni şəkildə döyüş meydanlarında ölkələr yeni siyasətə üz tutur".

Ancaq bu da həqiqətdir ki, hibrid müharibənin nə vaxtsa real müharibəyə keçəcəyini ciddiyə alan Ermənistan Rusiya hesabına sürətlə silahlanmaqdadır. Moskva-Ankara münasibətlərinin məlum səbəbdən soyuması sanki İrəvana bu yöndə əlavə fürsət qazandırıb. Hərgah, nisbətən praqmatik erməni politoloqları "tarixdən dərs götürərək" Ermənistana ehtiyatlı olmağı məsləhət görürlər.

Məsələn, bugünlərdə Rusiya Quru Qoşunları Hava Hücumundan Müdafiə Qoşunları komandanının keçmiş müavini, general-leytenant Aleksandr Luzan deyib ki, Rusiya ilə Ermənistan Hava Hücumundan Müdafiə sistemlərinin birləşdirilməsi Türkiyədən müdafiə olunmağa xidmət edir. Onun sözlərinə görə, bu həm də Rusiya təyyarəsinin Türkiyə tərəfindən vurulması ilə bağlıdır.

Qeyd edək ki, srağagün Moskvada Rusiyanın müdafiə naziri Sergey Şoyqu erməni həmkarı Seyran Ohanyanla Rusiya və Ermənistan arasında Qafqazda bölgənin təhlükəsizliyinin təmin edilməsi üçün regional Hava Hücumundan Müdafiə (HHM) sisteminin yaradılması haqda saziş imzalayıb. Bundan başqa, nazirlər 2016-cı ildə Rusiya ilə Ermənistan müdafiə nazirlikləri arasında əməkdaşlığa dair planı da təsdiqləyiblər.

***

Müharibədən ehtiyatlanan işğalçı və forpost Ermənistan beləcə, maksimum sürətlə öz əsas havadarına - Rusiyaya sığınmaqda, ondan maksimum istifadə eləməyə çalışır. Yada salaq ki, Ermənistanın xarici sərhədlərini də erməni sərhədçiləri deyil, Rusiyanın təhlükəsizlik qüvvələri qoruyur. Sözsüz ki, bununla İrəvan həm Türkiyəyə, həm də Azərbaycana mesaj verməyə çalışır ki, Qarabağda müharibə qızışsa, qarşınızda Ermənistanı yox, Rusiyanı görəcəksiniz.

Əlbəttə ki, Türkiyə və Azərbaycan Ermənistanın Rusiyanın arxasında gizləndiyini bilir - baxmayaraq ki, Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycan ərazisidir və heç kim Ermənistana hücum eləməyə hazırlaşmır. Ancaq heç kim zəmanət də verə bilməz ki, yeni Qarabağ müharibəsi zamanı Ermənistan Azərbaycanı təxribata çəkib, öz ərazisinə raket mərmisinin düşməsinə nail olmayacaq. Üstəlik, təcrübə göstərir ki, bunu Moskvanın əli ilə eləmək - Azərbaycan tərəfdən Ermənistana doğru "raket hücumu təşkil eləmək" qat-qat asandır.

***

Nəhayət, Azərbaycan tərəfi həm də onun fərqindədir ki, Ermənistan işğal altındakı Dağlıq Qarabağda neçə vaxtdır Suriyadan, Livandan olan terrorçu başkəsənləri, hətta PKK-çıları yerləşdirir. Təbii ki, Rusiyanın rüsxəti ilə. O Rusiya ki, hazırda özü də PKK-yanlılarla Türkiyə əleyhinə təzə əlaqələr içindədir, onların təmsilçiləri üçün Kremldə yüksək səviyyədə təmaslar təşkil edir, onlara təlimatlar verir.

Bu da sizə ən isti fakt: Türkiyə telekanallardan birinin dünən yaydığı süjetdə işğalı altındakı Azərbaycan torpaqlarında öldürülən erməni əsgərinin dəfn olunmaq üçün aparılarkən PKK terror təşkilatının bayrağına büküldüyü əks olunub. Təsadüfmü?

Əlbəttə, yox. PKK-nın siyasi qanadı sayılan HDP-nin sədri Səlahəddin Dəmirdaş süjet yayılan gün Moskvada xarici işlər naziri Sergey Lavrovla görüş keçirirsə, təsadüflərə, gümanlara əsla yer qalmır. PKK və müttəfiqləri indi ermənilərlə yanaşı, rusların da müttəfiqinə çevrilib - Türkiyə və Azərbaycan əleyhinə təbii ki.

***

Moskva və İrəvanın son gedişləri əlbəttə ki, nə münaqişə zonasında, nə də bütövlükdə Güney Qafqaz regionunda sülhə yaxşı heç nə vəd elәmir. Həmçinin Ermənistanın sürətlə silahlandırılması onun təhlükəsizliyinin güclənməsi və ya müharibədən sığortalanması anlamına gələ bilməz. Düşmən üçün müharibədən sığortalanmağın ən yaxşı, ən etibarlı, ən sadə və ucuz yolu bəlli - qonşu ölkələrə, Azərbaycan, Türkiyə və Gürcüstana qarşı ərazi iddiasından əl çəkib, onların ərazi bütövlüyün tanımaq və Rusiyanın əlində bölgəni qarışdırmaq üçün maşa rolu oynamaqdan imtina.

Bu olmayacaqsa, Ermənistan lap atom silahlı ilə silahlansın, heç vaxt dinc, təhlükəsiz mövcud ola, özünə qarşı haqq savaşından qaça bilməyəcək. Başqa sözlə, hibrid müharibə istənilən an qaynar müharibəyə çevrilə bilər - təcavüzkar üçün ən ağır sonuncları ilə birgə...



# Avropa Məhkəməsi Ermənistana qarşı iddianı icraata götürdü

**Avropa İnsan Haqları Məhkəməsi 2010-cu ildə Erməni Milli Konqresi tərəfindən Ermənistan hakimiyyətinə qarşı irəli sürülən iddianı icraata götürüb. Erməni qaynağının verdiyi xəbərə görə, bu barədə Erməni Milli Konqresinin deputatı Aram Manukyan bildirib.**

İddiada meriyanın mitinq və yürüşlərin keçirilməsindən imtinası ilə bağlı şikayət yer alıb. Manukyanın sözlərinə görə, Ermənistanda bütün məhkəmə instansiyalarını keçdikdən sonra Avropa İnsan Haqları Məhkəməsinə müraciət ediblər.

"İki gün əvvəl işin icraata götürülməsi ilə bağlı məlumat əldə olunub", - deyə Aram Manukyan qeyd edib.

Qeyd edək ki, Sərkisyan hakimiyyətinə qarşı Avropa Məhkəməsinə bu qəbildən edilən şikayət birinci dəfə deyil. Analoji müraciətlər ölkədəki siyasi dustaqlarla bağlı da olunub.

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

# Kritik dönəmdə ailə büdcəsini planlaşdırmağın yolları

## İqtisadçı ekspert çıxış variantı göstərir; əsas vasitələrdən biri qənaət rejiminə keçməkdir...

**Manatın devalvasiyası və ərzaq məhsullarının bahalaşması əhalinin büdcəsinə ciddi təsir göstərib. İndi hər kəs ailə büdcəsini düzgün istiqamətləndirmək, sərfəli xərcləmək barədə düşünür. Çünki hazırkı vəziyyətdə ailələrin öz gəlirləri hesabına ürəklərincə alış-veriş etməsi imkansızdır. Pulun düzgün istiqamətləndirilməsi üçün isə ailə büdcəsinin doğru planlaşdırılmasına ehtiyac var.**

Təəssüflər olsun ki, Azərbaycanda az sayda ailələr tapılar ki, onlar əvvəlcədən edəcəyi xərclərin planını qursun və büdcəyə uyğun hərəkət etsin. Adətən ailələr əmək haqqı alan günlərdə qeyri-ixtiyari olaraq daha çox pul xərclədiyi üçün ayın sonuna doğru pulları qalmır və ailə borclanmağa məcbur olur. Bu baxımdan ailə büdcəsinin xərclər hissəsinin planlaşdırılması, öncədən ailənin gəlirlərinə uyğun olaraq müəyyənləşdirilməsi olduqca vacibdir.

Bu gün bir çox ölkələrdə ailə büdcəsi tətbiq edilir. Hətta Böyük Britaniyanın statistika idarəetmə saytında ailə büdcəsinin planlaşdırılması ilə bağlı xüsusi kalkulyator var. Ailələr həmin büdcə formasından istifadə edərək inflyasiya səviyyəsini nəzərə alaraq, gəlirlərini daxil etmək və xərclərini seçməklə büdcələrinin planlaşdırılmasını həyata keçirirlər. Bu ölkədə əhalinin 90 faizi ailə büdcəsini əvvəlcədən planlaşdırır. Bir çox ölkələrdə ailə büdcəsinin planlaşdırılması üçün institusional baza mövcuddur. Bunun əhəmiyyəti ondan ibarətdir ki, hər bir ailə öz gəlir və xərcini planlı şəkildə proqnozlaşdırır.

Büdcə planlaşdırılan zaman diqqət edilməli bir neçə faktor mövcuddur. Bunlardan birincisi ailə üzvlərinin hər birinin əldə etdiyi gəlirlərin *(əmək haqqının, pensiyanın, təsərrüfat fəaliyyətindən əldə edilən gəlirlərin, əmlakın icarəsindən əldə edilən və digər gəlirlərin)* əvvəlcədən müəyyənləşdirilməsi və düzgün təhlilidir. İkinci əsas amil isə xərcləri müəyyənləşdirmək, onları büdcəyə uyğunlaşdırmaq və ciddi nəzarətdə saxlamaqdan ibarətdir. Eyni zamanda lazım olmayan xərcləri müəyyən etməklə və düzgün qərarların verilməsi yolu ilə xərclərə qənaət etmək də mümkündür. Təcrübəyə əsasən, xərcləri ciddi nəzarətdə saxlamaq və düzgün təhlil etməklə gözlənilməyən xərclərdən qaçmaq və ya 25 faizədək qənaət etmək olar. Bir çox ailələr xərclərini iki hissəyə ümumi və şəxsi xərclərə bölərək öz büdcə planlamasını edir. Belə ki, ailə üzvləri xəzinəyə eyni məbləğdə vəsait qoyur. Bu, ailənin ümumi xərclərinə *(kommunal ödənişlər, qida xərcləri və s.)* yönəldilir. Burda əsas məqsəd ay ərzində xərcləri həmin məbləğə uyğunlaşdırmaqdır. Yerdə qalan pullar ailə üzvlərinin şəxsi büdcələrini təşkil edir.

**İqtisadçı ekspert Rəşad Həsənov ailə büdcəsini planlaşdırmağın müxtəlif modelləri olduğunu bildirdi:** "Xüsusilə ən geniş yayılmışı ondan ibarətdir ki, ailənin aylıq büdcəsi əvvəlcədən tamamilə müəyyənləşdirilir. Ailənin gəlirləri də proqnozlaşdırılır və gəlirlərlə xərclər



arasında fərq varsa, ilk növbədə prioritet olmayan xərclərin silinməsi, yaxud azaldılması istiqamətində tədbirlər həyata keçirilir. Beləliklə, mümkün qədər çalışılır ki, ailənin gəlirləri ilə xərcləri arasında disbalans yaranmasın. Burada əsas məsələ ondan ibarətdir ki, sonrakı dövrdə xərclənən zaman kənar heç bir xərcləmələrə yol verilmir. Əvvəlcədən planlaşdırıldığı kimi mümkün qədər qənaət də büdcəyə icra olunur. Bizdə əvvəlcədən ailənin büdcəsini planlaşdırmaq, maddə-maddə yazmaq, ona əməl etmək az yayılıb. Düşünürəm ki, çox az ailələr bu kimi addımlar atır. Amma əsas məsələ odur ki, yaranmış hazırkı situasiyada Azərbaycan vətəndaşının yeganə çıxış yollarından biri məhz qənaətdir. Bunun başqa yolu yoxdur. Mümkün qədər vacib olan xərc istiqamətlərində xərcləmələr etmək lazımdır. Xüsusilə ailənin kommunal xərcləri, ərzaq tələbatı kimi ödənişlər prioletet olmalıdır. Ondan sonrakı növbədə isə əgər varsa, kredit borclarının müəyyən hissəsi ödənilməlidir. Güman olunur ki, orta hesabla hər bir ailənin kredit borcları var. Ailələr digər sahələrə, xüsusən də lüks xidmətlərdən istifadə, lüks məhsulların istehlakı kimi israfçı xərc istiqamətlərindən mümkün qədər qaçmalıdır. Hazırkı vəziyyət nəzərə alınaraq ailə üzvləri ailə büdcəsinə işlə bağlı əlavə gəlir gətirmək üçün daha çox səy göstərməlidirlər. Çünki əvvəlki dövrlərdə vəziyyət nisbətən fərqli idi. Bəzi hallarda ailənin bir üzvü çox yüksək gəlirlə fəaliyyət göstərirdisə, digər üzvlər işləmək ehtiyacı duymurdu. Amma indi yaranmış situasiyada belə ailə üzvlərinin yükü bir nəfərin üzərindən götürməsi lazımdır. Bu, Azərbaycanda daha çox yayılıb ki, ailə başçısı əsasən ailənin maliyyə məsələlərini həll edir ki, bu məsələdə də müəyyən qədər liberal olmaq lazımdır və ailəyə bir neçə istiqamətdən gəlirlərin daxil olmasına çalışmaq lazımdır".

**İqtisadçı ekspert digər ölkələrdən fərqli olaraq Azərbaycanda əlavə gəlir mənbələrinin yox dərəcəsində olduğunu dedi:** "Xarici ölkələrdə vətəndaşlar səhm bazarından, qiymətli kağızlardan, birjadan əlavə gəlirlər əldə edirlər. Azərbaycanda bu kimi əlavə gəlirlər əldə etmək imkanı məhduddur. Lakin mümkün qədər çalışmaq lazımdır ki, fərqli sahələrdə ailəyə gəlir daxil olsun ki, növbəti dövrlərdə bu ailənin bir istiqamət üzrə hansısa iflas və yaxud da ixtisar baş verərsə, ailə tamamilə gəlirlərdən məhrum olmasın".

❑ **Günel MANAFLI**

# Azərbaycanın son 2 ayı - "MTN işi", yanğın, devalvasiya...

## Bu cür hadisələrin cəmiyyətə hansı mənfi təsirləri ola bilər?



**Azərbaycan cəmiyyəti son iki aydır demək olar ki, hər gün gərginlik içərisindədir. Öncə MTN-də baş verən hadisələr üzə çıxdı. Bunun ardınca isə cəmiyyət Nardaran hadisələri, daha sonra "Günəşli" yatağında baş verən faciəvi yanğından sarsıldı. Bu hadisələr sonrası insanlar yenicə toparlanıb Yeni ilə hazırlaşarkən isə gecə ilə manatın kəskin devalvasiyası baş verdi və əhali bir gecədə gəlirlərinin 50 faizini itirdi.**

Bu cür sensasion gəlişmələrin cəmiyyətə hansı təsirləri ola bilər?

Məsələ ilə bağlı musavat.com-a danışan psixoloq Dəyanət Rzayev bildirib ki, ölkədə cinayət hadisələrinin sayı artacaq: ""Psixoprofilaktika" deyilən bir anlayış var. Misal üçün, cinayət baş verməzdən öncə onun qarşısını almaq tədbirləri görülməlidir. Öncə məsələyə bu cür yanaşaq ki, evdə uşaq hansısa bir ərköyünlük edən zaman onun qarşısını öncədən alarsaq, gələcəkdə onun davranışında bu proses daha da dərinləşməz. Cəmiyyətdə də eyni ilə belədir. Ümumi götürdükdə, Azərbaycanda son 70 gündə baş verən hadisələr, əhalinin psixologiyasına olduqca böyük zərbə vurub. Hələ ki bunu bir o qədər də hiss etmirik. Çünki proseslər yeni başlayıb. Fəsadlar daha sonra hiss olunacaq. Üç fakt var ki, bu cəmiyyətləri uçuruma aparır: ümidsizlik, qorxu və qeyri-müəyyənlik. Azərbaycan xalqı bu gün sadaladığım faktların üçünü də yaşayır. Bütün hər kəsdə bu dəqiqə qorxu var. Deyirlər, görəsən, hadisələr necə inkişaf edəcək, başımıza nə gələcək? Elə bu sualdan da qeyri-müəyyənlik yaranır. Başlarına nəyin gələcəyini bilmirlər. Nəyinsə də yaxşıya doğru dəyişəcəyinə ümid etmirlər. Buna görə də ümidsizdirlər".

**Psixoloq bildirib ki, hətta müharibə olan zaman belə, insanlarda heç olmasa, sabaha ümid olur:** "Ümid edirlər ki, qələbə çalacaqlar və hər şey düzələcək. Azərbaycan cəmiyyətinin indiki duruma düşməsinin başlıca səbəblərindən biri də aldanmasıdır. Hər kəs düşünürdü ki, MTN təmiz strukturdur. Orada heç bir qayda pozuntusu, korrupsiya faktoru ola bilməz. Ancaq yaşananlar bunun əksini göstərdi. Devalvasiya zamanı da həmçinin Mərkəzi Bankın sədri televiziya vasitəsilə bildirdi ki, manat ucuzlaşmayacaq, ancaq ucuzlaşdı. Tutalım insanlar bir günə 10 manat qazanmışdılarsa, səhər yuxudan dururlar ki, bu pul 5 manat olub. Bu da əlavə gərginliklər yaradır. Hazırda cəmiyyətin həyatında bir problem də budur ki, savadlı təbəqənin bir çoxu xaricə köçür. Bunun özü də cəmiyyətin gələcəyi üçün mənfi haldır. Baş verən hadisələrdən sonra ölkədə cinayətlərin sayı artacaq. İnsanlar düşünürlər ki, tutulsaq həbsxanada hazır yemək yeyəcəyik. Bax bunun özü artıq faciədən xəbər verir".

**Sosioloq Əhməd Qəşəmoğlu musavat.com-a açıqlamasında bildirib ki, ölkədə hazırda bir o qədər də sosial gərginlik hiss olunmur:** "Sadəcə, insanlarda bir ruh düşkünlüyü var. Bunun nəticəsində isə insanların səhhətində problemlər olacaq. Hazırda hökumət də bu problemlərin qarşısını almaq üçün təcili stimullaşdırıcı tədbirlər keçirməlidir. Ən qorxulu şey ümidə dəyən ziyandır. Hiss olunur ki, dövlət də bu istiqamət üzrə hansısa proqramların üzərində işləyi".

Bu proseslərə mətbuat nümayəndələri bir qədər fərqli yanaşırlar. Mətbuatın işi cəmiyyətlərdə baş verən hadisələrdən yarandığı üçün sensasion gəlişmələr zamanı mətbuat nümayəndələri həm də iş gərginliyi içərisində olurlar.

**Mövzu ilə bağlı hafta.az saytının redaktoru Səbinə Əvəzqızının fikirlərini aldıq. O, aşağıdakıları söylədi:**

"Bilirsiz, yadıma müxbir işlədiyim dövrlər düşdü. Bir ara siyasi kriminal xəbərlər üzrə materiallar hazırlayırdım. Hadisə baş verən kimi elə sevinə-sevinə gedirdim ki... Bir gün redaksiyadaydım, xəbər gəldi ki, parkda iki vəzifəli şəxsin uşaqları bir-birini bıçaqlayıb. Yerimdən od kimi götürülüb sevincək gedirdim ki, birdən dedilər ölüm yoxdur. Mən də dedim sevinmişdim ki, qətl olub. Sonra öz dediyimdən özüm də qorxdum. Biz media əhli təbii ki, hadisə, yenilik axtarırıq. Durğunluq heç işimizə gəlmir. Çünki hadisə olmayanda gərək gündəmi özümüz yaradaq. Bu da asan məsələ deyil.

MTN hadisələri açılan zaman artıq cəmiyyət itirdikləri xəbərləri oxuyurdu. Yəni məlum oldu ki, onun ölkəsində sahibkarların, dolayısıyla onun iqtisadi durumunun başına hansı oyunlar gəlibmiş. Neftçilərin şoku isə hələ də davam edir. Bu sahədə həm cəmiyyət, həm insan olaraq itkilərimizi heç nə ilə müqayisə edə bilmərik. İnanmıram ki, hansısa media rəhbərini bu xəbərlərə görə tutduğu İP-lər sevindirsin. Bəlkə də var, heç kimin yerinə söz vermək istəməzdim".

**S.Əvəzqızı bildirib ki, devalvasiyaya gəldikdə, bu buruluğan vətəndaşlarla birlikdə bizi də içinə çəkdi:**

"Təbii ki, yeni gündəm yaratdı, ortaya xeyli mövzu çıxdı. Məsələn, 2-3 gündür bizim müxbirlər devalvasiyaya məruz qalan yerlərdən reportaj hazırlayacaqlar deyə demək olar ki, ofisə gəlib çıxa bilmirlər. Həm işin, həm də şəxsi maddi çətinliklərimizin gərginliyi altındayıq. Bir sözlə, son 70 gündə işdə templər artan xətlə inkişaf edir. Cəmiyyətin nəsə qazandığını isə görmürəm. Yalnız Nardaran hadisələrində gələcəyə ümidlə baxıram. Təbii ki, orada itirdiyimiz 7 nəfəri öz ailəmdən itki kimi qəbul edərək içimi acıdır. Lakin ümidliyəm ki, bu proseslər daha böyük itkilərin qarşısını alıb".

❑ **Əli RAİS**

# Kişi özünü "Nikoil" bankın qarşısında yandırmağa cəhd etdi

**Bakıda intihara cəhd olub. Bu barədə virtualaz.org saytına Nəsimi Rayon Polis İdarəsindən məlumat verilib.**

Məlumata görə, Bakı şəhər sakini Elvin Mehdiyev özünü "Nikoil" bankının Puşkin küçəsi, 30 ünvanında yerləşən ofisinin qarşısında yandırmağa cəhd edib. O, üstünə benzin tökərək özünə od vurmaq istəsə də yaxınlıqdakı insanlar buna imkan verməyib.

Bəzi məlumatlara görə, E.Mirzəyevin xeyli borcu olub və pulları qaytara bilmədiyi üçün bu üsula əl atıb.

Nəsimi Rayon Polis İdarəsindən bildirilib ki, iş üzrə materiallar ərazi üzrə Səbayel RPİ-yə verilib.

# Gürcüstanın üzünü güldürən, bizi kompleksə salan... Şengen

## Şengen vizası barədə bilmədiklərimiz; incə detallar, maraqlı yeniliklər

**Son günlərin ən çox müzakirə olunan mövzularından biri də Ukrayna və Gürcüstan vətəndaşlarının Şengen zonasına daxil olan Avropa İttifaqı (Aİ) ölkələrinə vizasız gedə biləcəyi ilə bağlıdır.**

Sənədə əsasən, Avropa Komissiyası Gürcüstan, Ukrayna və Kosovo ilə viza liberallaşdırılmasına dair müsbət qərar qəbul etdiyini elan edib. Sənəd Avropa Parlamenti və Avropa Birliyi üzvü olan ölkələr tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minəcək. Sözügedən mərhələlərin gələn ilin yayına qədər başa çatacağı gözlənilir. Bu arada qeyd edək ki, Gürcüstanın Avropa və Avroatlantik strukturlara inteqrasiya məsələləri üzrə dövlət naziri David Bakradze bildirib ki, Avropa Komissiyası Gürcüstan dövlətinin həyata keçirdiyi islahatları bəyənir: “Vətəndaşlarımızın biometrik pasportlarının olması viza rejimini həyata keçirmək üçün kifayətdir. Bu, viza sisteminin müsbət həllinə kömək edəcək. Gürcüstan hökuməti viza haqqında sənəd qəbul etdikdən sonra onu Avropa Parlamentinə və Avropa Şurasına göndərəcək. Bundan sonra siyasi qərar qəbul ediləcək. Düşünürük ki, bu, 6 ayadək çəkəcək və bütün Gürcüstan vətəndaşları Şengen ölkələrinə vizasız gedib-gələcək”.

### Qaydalar 1995-ci ildən qüvvəyə minib

Yolu Avropaya düşənlər yaxşı bilir; viza almanın necə çətin proses olduğunu azərbaycanlılar şəxsən yaşayırlar. Toplanan sənədlərin çoxluğu, görüş üçün vaxt alma və sonda da... daşıdığın statusdan asılı olaraq sənə verilən müddətli viza. Təbii ki, mühacir dalğasının bu qədər güclü olduğu bir dönəmdə xarici ölkələrin Azərbaycandakı səfirlikləri viza müraciətlərinə maksimum həssas yanaşırlar: bəlkə gedib, mühacirlər ordusuna qoşulacaqsan? Bu sual açıq şəkildə verilməsə də, ciddi yoxlamalar bunun nəticəsidir.

“Yeni Müsavat” mövzunun aktuallığını nəzərə alıb, məlum-naməlum viza sistemi, onun incəlikləri, tarixi barədə kiçik araşdırma aparıb.

Avropa Birliyində 1995-ci ildə qüvvəyə minən Şengen (Schengen) Müqaviləsi ilə tərəf ölkələr aralarındakı sərhəd *(“daxili sərhəd’” adlandırılır)* nəzarətləri aradan qaldırılıb. Bu qaydada yaradılan Şengen bölgəsinin xarici sərhəd nəzarətlərində ortaq tətbiqetmə və qaydalar həyata keçirilib. Şengen sahəsi viza, polis və qanunvericilik sistemlərindəki əməkdaşlığı əhatə edir.

24 Şengen ölkəsi bunlardır: Almaniya, Avstriya, Belçika, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, İslandiya, İspaniya, İsveç, İtaliya, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yunanıstan.

İslandiya, Isveçrə və Norveç istisna olmaqla, bütün ölkələr Avropa Birliyinin üzvləridir. Avropa Birliyinə daxil olan 5 ölkə - Birləşmiş Krallıq, İrlandiya, Bolqarıstan, Kipr və Rumıniya Şengen zonasına daxil deyillər. Avropa Birliyinə üzv olmayan ölkələrin vətəndaşlarının Şengen zonasına səyahət etməsi Şengen vizasının tətbiq edilməsi nəticəsində asanlaşdırılıb,

Şengen sazişini imzalamış, Avropa İttifaqına daxil olan 5 ölkə, İngiltərə və İrlandiya isə pasport idarəsini bütünlüklə ləğv etməməsi səbəbindən Şengen zonasının sərhədlərindən kənarda qalıb. Bolqarıstan, Ruminya və Kipr bunu hələ gələcəkdə ləğv etməyi planlaşdırırlar.

5.06.2005-ci il referendumu ilə İsveçrə vətəndaşları Şengen zonasına daxil olmağa səs veriblər. 15.03.2006-cı ildə sərhədlərlə bağlı yeni sənəd - Şengen kodeksi qəbul edildi və Şengen konvensiyası dəyişdirildi. 2007-ci ilin 21 dekabrında 9 ölkə də *(Slovakiya, Sloveniya, Polşa, Macarıstan, Çexiya, Malta, Latviya, Estoniya və Litva)* Şengen zonasına daxil oldu və sərhəd nəzarətini ləğv etdi. Hava məkanında isə bu 30.03.2008-ci ildə ləğv edildi. Aeroportlarda sərhəd nəzarəti 29 mart 2009-cu ildə ləğv edildi.

**Keçək qaydalara.** Şengen viza rejimi qaydalarına əsasən, Şengen vizası ilk dəfə istifadə olunarkən, vizanın alındığı ölkəyə giriş etmək məcburiyyəti var. Məsələn, İtaliyanın nümayəndəliklərindən alınan viza ilə əvvəlcə İtaliyaya daxil olunmalıdır.

Şengen ölkələri ortaq “Şengen Information System” (SIS) adı verilən bir məlumat bazasından faydalanırlar. Bu məlumat bankında Şengen ölkələrinə daxil olacaq şəxslərlə bağlı məlumatlar başda olmaqla, digər müxtəlif informasiyalar da öz əksini tapacaq və üzv olan ölkələrin səlahiyyətli orqanlarının istifadəsinə açıq olacaq.




### Şengen - Lüksemburqda kiçik bir şəhərdir...

İndi də bu sözün necə yaranmasına keçək. Niyə Şengen vizası? “Şengen” sözü Lüksemburqda kiçik bir şəhərin adından götürülüb və məhz bu şəhərdə 1985-ci ilin iyun ayında 5 Avropa ölkəsi öz ölkələri arasında sərhəddə yoxlama və nəzarətə son qoyan bir saziş imzalayıblar. Sonrakı illərdə bir çox ölkələr də bu sazişə qoşulublar.

Şengen vizası ilə siz bir ölkəyə daxil olaraq bütün Şengen zonasında azad səyahət edə bilərsiniz. Daxili sərhədlərin nəzarəti ləğv edilib. Lakin təhlükəsizliyi təmin etmək üçün Şengen zonasında hər hansı bir yerdə müəyyən nəzarət mümkündür. Daxili uçuşlar, yol və qatar səyahətləri də tədricən ölkədaxili səyahətlər kimi idarə olunur. Şengen vizaları qısamüddətli vizalardır və onlar Şengen zonasında 6 ay müddətində maksimum 90 gün qalmağa imkan verir. Uzunmüddətli səfərlər üçün isə milli vizalar tələb olunur və bu da hər ölkənin öz qanunvericiliyindən asılıdır.

Əgər siz yalnız bir Şengen ölkəsinə səyahət etmək istəyirsinizsə, o zaman yalnız həmin ölkənin səfirliyinə müraciət etməlisiniz. Şengen zonasının müxtəlif ölkələrinə səyahət etməyi nəzərdə tutursunuzsa, o zaman əsas istiqamətiniz olan ölkənin səfirliyinə müraciət etməlisiniz. Əgər siz müxtəlif Şengen ölkələrinə səyahət etməyi nəzərdə tutursunuzsa və onlardan heç biri sizin əsas istiqamətiniz deyilsə, o zaman siz ərazisinə birinci daxil olacağınız ölkənin səfirliyinə müraciət edirsiniz. Viza üçün müraciət edən zaman siz şəxsən özünüz gəlməlisiniz və ərizə forması *(şəxsən doldurmalı və imzalamalısınız)* və səyahətiniz üçün digər lazımi sənədləri təqdim etməlisiniz. Viza rüsumunun məbləği 60 avrodur *(hər bir səfirliyin tətbiq etdiyi qaydaya uyğun olaraq avro, manat və ya dollarla Şengen səfirliklərinin viza şöbələrində ödənilməklə)* və bu məbləğ geri qaytarılmır. Heç bir digər məbləğ ödənilmir. Turizm agentlikləri vizanın verilməsi qərarında heç bir rol oynamır.

### Detallar, detallar, detallar - şeytan orda gizlənib...

Təfərrüatları da yaddan çıxarmayaq. Viza müraciətində ümumi qayda müraciətin şəxsən edilməsidir. Pasport təhrif edilməməlidir. Təhrif edilmiş pasporta viza alınsa belə turist sərhəddən geri qaytarıla bilər. Pasportun etibarlılıq müddətinin müraciət tarixindən etibarən ən azı bir il olmağına diqqət etmək lazımdır. Müraciət edərkən sənədlərin tam olmağına diqqət etmək lazımdır. Təhrif edilən və ya saxta sənədlərlə müraciət etmək qanunlara görə cinayət hesab olunur.

Məsləhətlər sırasında o da qeyd olunub ki, müsahibə zamanı səlahiyyətli şəxsin, haqqınızda müsbət təəssürat əldə etməsi müraciətinizin qəbul edilmə şansını artırır. Səyahətinizi həyata keçirə bilmək üçün yetərli maliyyə imkanlarına sahib olduğunuz sənədləşdirilməlidir. Müsahibənin məqsədi; səyahət edəcəyiniz ölkənin müvafiq orqanlarının bu ölkəyə səyahət edəcək xarici vətandaşlar üçün təyin etdiyi şərtlərə uyğun olub olmadığınızı anlamaqdır.

Heç bir yerdə işləmirsinizsə və ya özünüzün və himayənizdə olan şəxslər varsa, həmin şəxslərin dolanışıqlarını təmin edə biləcəyiniz daimi və yetərli gəlir səviyyəsinə sahib deyilsinizsə, potensial miqrant qəbul ediləcəksiniz və bütün bu sadalananlara görə viza almaq şansınız olduqca aşağıdır. Belə bir vəziyyətdə, viza üçün müraciət etməməyiniz daha məqsədəuyğundur.

Rədd ediləcəyinizi bildiyiniz bir tələbdən imtina etməklə həm vaxt, həm də pulunuza qənaət etmiş olacaqsınız.

Bəzi ölkələr viza xərcləri ilə yanaşı, yüksək məbləğlərdə müraciət və ya prosedur xərclərini də alır. Bu şərtlər ölkələrdən asılı olaraq fərqlilik göstərir. Müvafiq nümayəndəlikdən məlumat almağınızda fayda var.

### Qara siyahılar və o siyahıdakı insanlar...

Hər dövlətin ölkələrinə girişinin qadağan etdiyi və ya təhlükəli hesab etdiyi ölkə siyahıları var. Eyni zamanda qadağan olunanlar siyahısında mövcud olmayan bir xarici vətəndaşa, maliyyə cəhətdən yük təşkil edəcəyi, ictimai asayişi poza biləcəyi və dövlət səhiyyə müəssisələrində risk yarada biləcəyi səbəblərinə görə də viza verilməməsi mümkündür.

Beynəlxalq hüquqda dövlətlərin milli suverenlik səlahiyyətləri əsasdır. Bu suverenliklərindən sərhədləri daxilində qüvvəyə mindirdikləri qanunlar vasitəsilə istədikləri formada istifadə edirlər. Milli suverenlik səlahiyyətləri arasında ölkələrinə hansı xaricilərin hansı şərtlərlə daxil olacağını təyin etmək də var. Viza bu məqsədə xidmət edir. Dövlətin bu səlahiyyəti beynəlxalq hüquq cəhətdən danılmaz faktdır. Dövlətlər suverenlik səlahiyyətlərini öz iradələri ilə məhdudlaşdıra bilərlər.

Viza müraciətinin rədd edilməsinə etiraz ilk öncə vizanı rədd edən nümayəndəliyə yazılı şəkildə edilməlidir. İstənilən müsbət cavab alınmadığı təqdirdə, etiraz üçün məhkəməyə müraciət oluna bilər. Ancaq vizanın rəddi üçün müraciət olunacaq məhkəmələrin sayı məhduddur. Eyni zamanda ümumillikdə uzun vaxt aparan məhkəmə prosedurunun sonunda məhkəmənin dövlət əleyhinə nəticələnmə ehtimalı da olduqca zəifdir. Digər mühüm məsələ bir dövlətin qanunları viza üçün müraciət edən şəxsə məhkəmə yolunu açıq tutursa, həmin işə müvafiq dövlətin məhkəmələri baxacaq. Buna görə də həmin ölkənin vəkilini tutmaq lazımdır.

❑ **Sevinc TELMANQIZI**




Cümə söhbətləri

**Bismillahir-Rahmənir-Rahim! Böyük İslam Peyğəmbəri, yaranmışların əşrəfi - Həzrət Muhəmmədin (s) mübarək mövludu günlərini yaşayırıq. Məkanından, millətindən, irqindən, savadından asılı olmayaraq, Rəsulallahın (s) mübarək mövludu bütün müsəlmanlar üçün ən böyük bayramdır.**

# Mövlud günlərində eqzistensial düşüncələr

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Mübarək gəlişi ilə...

Lakin bəşəriyyət tərəfindən yaşanan dərin vücudi böhran, insanların robotlaşması prosesi, yaranan vücudi, eqzistensial problemlərdən düzgün çıxış yolları tapa bilməməsi bu əziz bayramdan tam bəhrələnməyə imkan vermir. Əfsuslar olsun ki, bizim kiçicik planetimiz dözümsüzlüklə, özgə mədəniyyətinə hörmətin azlığı ilə, mehribanlıq və səmimilik atmosferində yaşamaq istəyinin olmaması halları ilə doludur.

Bəs bu ağır durumdan necə çıxış yolu tapmaq olar, məhvolmanın qarşısını nə ilə almaq olar? Bəlkə elə Həzrət Rəsulullahın (s) əziz mövludu günləri ilə əlaqədar əlverişli bir məqam yaranıb ki, nəzər salaq, görək onun mübarək gəlişi ilə dünyada nələr dəyişmişdir? Bir təhlil edək, anlamağa çalışaq ki, onun gəlişinin ümumbəşəri, taleyüklü əhəmiyyəti nədən ibarətdir? Uca Allahın Qurani-Kərimdə "peyğəmbərlərin möhürü" adlandırdığı bu misilsiz şəxsiyyətin gəlişi nəticəsində nələr baş verib?

Bu İlahi elçilərdən sonuncusunun gəlişi ilə yeni eranın - Qiyamət günündən qabaq axırıncı eranın başlanğıcı qoyulub. Bu eranın başlanğıcı ilə də kamil insan yetişdirmək risaləti aşkar edilib. Kamilliyin cəhaləti bilmərrə üstələməsi düzümü ilə səciyyələnən bir era başlanıb. Bu, bir eradır ki, burada "Lə İləhə İlləllah" fəlsəfəsi - bütlərə, ədalətsizliyə, ətalətə, vicdansızlığa, xurafata, qaragüruhçuluğa, cəhalətə qətiyyətli "yox!" deyən bir fəlsəfə bəşəriyyətə çatdırılır. Bu, bir eradır ki, burada "Muhəmmədun Rəsulallah" hikməti - Həzrət Muhəmmədin (s) Allah Elçisi, nəbilərin sonuncusu, peyğəmbərlərin möhürü olması, bəşəriyyətin vicdanı, iman gətirənlərin örnəyi və ilk növbədə Əbdullah fenomeni - Allahın həqiqi bəndəsi olması hikməti insanlara aşkar edilir.

## Cahiliyyə dövrünün çalarlarından biri...

Bəli, mübarək günləri yaşayırıq. Əziz İslam Peyğəmbərinin (s) mövludunda o əziz şəxsiyyət haqqında danışmaq çox çətindir. Çünki bizim nəyimiz varsa, ona aiddir, ona borcluyuq. Həyatın elə bir sahəsi, səhnəsi, cəhəti yoxdur ki, orada Peyğəmbərimizlə (s) bağlı hansısa bir mövzu olmasın. Ona görə də Həzrət Rəsulallah (s) haqqında deyilməli məsələlər həddən artıq çoxdur. Bunların bəzilərinə toxunmaq yerinə düşər.

Bir şərait təsəvvür edək ki, indi qeyd edəcəyimiz səhnə o toplum üçün ən adi, sıravi bir səhnə idi. Körpə qız uşağıdır. Anlamadığı şəkildə, dərk etmədiyi şəkildə atasının üzünə baxır və o da öz əlləri ilə övladını torpağa basdırır. Bu, bir hal deyil, iki hal deyil, üç hal deyil. Bu, Ərəbistan yarımadasının İslam Peyğəmbəri (s) gələnə qədər adi və sıravi halı idi. Bəşəriyyət o qədər aşağı tənəzzül edib, o yerə gəlib çatmışdı ki, övladını diri-diri torpağa basdırmaq - adi bir hal almışdı. Cahiliyyə dövrünün bir sıra çalarları var idi. Onlardan biri də məhz qız övladına olan münasibətdir. Buna ayrıca mövzularda toxunmaq olar ki, dəyişdimi qadınların vəziyyəti, qadınlara olan münasibət yoxsa günümüzdə onlar fiziki olaraq torpağa tapşırılmasalar da, şəxsiyyətini və mənəviyyatını torpağa tapşırırlar? Düşünürəm ki, bu gün guya qadın azadlığı adı ilə əslində qadının şəxsiyyətini, qadının varlığını məhv edirlər. Fiziki mənada deyil, tam ruhi mənada, mənəvi mənada qadını dəfn edirlər.

## Ən yüksək insan - ən geridə qalmış sivilizasiyaya...

Bəli, Ərəbistanda belə vəziyyət idi. Bir şəxsin Allah-Təala tərəfindən göndərilməsi ilə bütün vəziyyət dəyişir. Çox diqqət olunmalı məsələ budur ki, Allah-Təala Peyğəmbərimizi (s) o zaman bəşəriyyətin mövcud olduğu ən aşağı sivilizasiyaya göndərib. Həzrət Peyğəmbər (s) ən aşağı mədəniyyət olan yerə göndərilib. Ondan aşağı sivilizasiya yox idi. Bir kənd təsəvvür edək ki, sanki burada universitet qurmaq istəyirik. Bir kənddə universitet qururuq ki, burada nə məktəb var, nə müəllim var, nə qələm tutan var, nə də oxumaq istəyən var. Və ya bir torpaq təsəvvür edək ki, heç kim yaxın durmur, şoran torpaqdır və burada nəsə əkmək istəyirik. Bir idman məşqçisini təsəvvür edək ki, ona ən pis oyunçular verilib. Onlardan pis oynayan yoxdur.

Ərəbistan yarımadasının halı bu durumda idi. Bir əlin barmağının sayı qədər yazı-pozu bacaran var idi. Öyündükləri məsələlər - vurmaq, yıxmaq, öldürmək, dəvə yarışması, şeir müsabiqəsi *(şifahi ədəbiyyat inkişaf etmişdi)*, arası kəsilməyən müharibələr idi. Pərəstiş etdikləri də bəlli idi. Neçə yüz bütləri var idi. Sözün hər mənasında ən pis vəziyyət idi. Ərəbistan bir yer idi ki, yaşam üçün ən əlverişsiz durum idi. Susuzluq, şiddətli isti, şiddətli külək, ağır şərait və s. - yaşamaq üçün son dərəcə rahatsız bir mühit idi burada. Və bu mühitə, bu duruma bir Nur saçır.

## Mədəniyyətin avanqardı

Bəli, Həzrət Peyğəmbər (s) gəlir və bir neçə onilliyə Ərəbistan yarımadasında dünyanın ən aparıcı, ən avanqard, ən birinci, ən öndəgedən, ən qurucu sivilizasiyasını meydana çıxarır. Bir nəsil dəyişməsinə qədər Peyğəmbər (s) bunları edə bilib. Bir neçə onilliyə İran kimi böyük bir imperiya və onun dəyər adına olan nəsnələri aradan gedir, ləğv olur. Digər tərəfdə Yunan sivilizasiyası. Minillər boyu formalaşan dövlətçilik, mədəniyyət. Amma Ərəbistan səhralarında formalaşan yeni sivilizasiya sərhədləri aşaraq, dörd tərəfə yayılır.

## İslam dəyərləri mədəniyyətin avanqardına çevrilir...

Əziz Peyğəmbərin (s) çatdırışlarına, ismarıclarına baxmaq gərəkdir. Həyatın hər məsələsinə - tərbiyə, ailə, iqtisadiyyat, gigiyena, dostluq, xidmət, ibadət, təhsil, elm - hər sahəyə aid tövsiyələr var burada.

Tərbiyə prinsiplərini götürək. On dörd əsr bundan öncə Peyğəmbərimizin (s) təlim-tərbiyə ilə bağlı buyurduğu kamil sistemə müasir pedaqogika indi-indi haradasa yaxınlaşmağa başlayır.

Yaxud Peyğəmbərimizin (s) təmizliklə, gigiyena ilə bağlı dediklərini iyirmi birinci əsrə inikas etdirdikdə, qəribə mənzərə alınır. Görürük ki, hələ də bəşəriyyət bu məsələlərdə lazımi nəticələr əldə etməyib.

Elmlə bağlı da vəziyyət o cürdür. Çin, Peyğəmbərin (s) dövründə ən uzaq məntəqədir. Nə təyyarə var, nə də digər bir vasitə. Necə ki, indi bizə Aya, ulduza getmək çətin görsənirsə, Çinə getmək də o cür idi. Həzrət Peyğəmbər (s) buyururdu ki, "Elm uzaq Çində də olsa, onun dalınca gedin". İndi dövrümüzə bu deyiləni tərcümə etsək, o deməkdir ki, elm Ay da olsa, Marsda da olsa onun dalınca gedin. Yəni Peyğəmbər (s) müsəlmanlara deyir ki, gedin inkişaf edin.

Bəs necə oldu ki, müsəlman toplumunun vəziyyəti bu yerə gəlib çatdı? Cavab çox sadədir: Peyğəmbərimiz (s) deyən dəyərləri yaşadana qədər ümmətdə inkişaf oldu. Bu dəyərlər yaşadılmayan gün və bu dəyərlər haşiyəyə çevrilən gün isə geriləmə başlandı. Biz mövlud günlərində, bayram günlərində çox mühümdür ki, qeyd edək, bayram edək. Və burada önəmli mövzulardan biri budur ki, mövludu olan əziz şəxslərin mübarək buyuruşlarını yaşatmaq lazımdır.

Kiminsə əxlaqi vəziyyəti yerində deyilsə, xatırlamalıdır ki, Peyğəmbər (s) özü buyurub ki, onun gəlişi - ali əxlaqları tamamlamaq üçün olub. Əgər insan Peyğəmbər (s) ümmətində olmaq iddiasındadırsa, əxlaqını düzəltməlidir.

Hər bir şey əziz Peyğəmbərin (s) tanıtdırdığı dəyərləri yaşatmaqdan keçir. Bu dəyərləri yaşatmaq üçün isə ilk növbədə onları özümüz yaşamalıyıq. Hərə öz ətrafında bu mövludu yaşatmalıdır. Ailəsi ilə, övladı ilə, qonşusu ilə, dostu ilə, yaxını ilə hər kəs mövludu yaşatmalıdır. Peyğəmbərin (s) mövludunu həyatımızın mərkəzinə çevirməyincə, o günü layiqli şəkildə yaşatmayınca, övladlarımız üçün bunu ən ali dəyərə çevirməyincə, batil məsələlər hər birimizin evinə də yol tapa bilər.

## Hikmət dənizindən bir damla

Həzrət Muhəmmədin (s) mübarək varlığı, yalnız və yalnız gözəlliklər əxz etmək istəyən insan üçün həqiqi bir xəzinədir. Əziz Rəsulallahın (s) kəlamlarında bütün vücudi suallarımıza cavab tapa bilirik. Burada insanlara məhəbbət də var: **"İmandan sonra ən yaxşı əməl - insanlara qarşı sevgidir"**.

Burada İlahi müdriklik də var: **"Müdriklik ona bənzəyir ki, mömin sanki itirdiyi bir şeyini tapır - belə ki, kimdən eşitdiyinə və haradan gəldiyinə əhəmiyyət verməyərək götürər"**.

Burada cəhalətin qınanması da var: **"Ya alim ol, ya tələbə, ya dinləyən ol, ya elmi sevən - amma bu sırada beşinci (yəni cahil) olma - bu, uçuruma aparan (bir yoldur)"**.

Burada valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı da var: **"Sizin evlərdən ən yaxşısı odur ki, orada yetimin hüququ qorunur"**.

Burada qadına xüsusi münasibət tələbi də var: **"Sizləri məxsusən iki kateqoriyaya aid müdafiəsiz insanların: yetimlərin və qadınların hüququnu qorumaq barədə xəbərdar edirəm"**.

Burada ailəyə xüsusi diqqət də var: **"O vaxt ki, ər xanımına, xanımı da ərinə (nəvazişlə) baxar, Uca Allah da onlara xüsusi rəhmətlə nəzər salar"**.

Burada uşaq tərbiyəsinə xüsusi diqqət də var: **"Allah-Təala sevir ki, siz uşaqlarınız arasında ədalətin gözlənilməsinə xüsusi diqqət yetirəsiniz - hətta onları öpdükdə belə, ədalətə riayət edin"**.

Burada elmə və biliyə xüsusi münasibət də var: **"Beşikdən qəbir evinədək elm öyrənin"**.

Burada həqiqi vətənpərvərlik də var: **"Vətənə sevgi - imandandır"**.

Burada alimlərin böyük məsuliyyəti barədə xəbərdarlıq var: **"İnsanlardan ən pisi - pis alimlərdir"; "Qiyamət günü elmini tətbiq etməyən alimi insanlar arasında ən ağır cəza gözləyir"**.

Burada insan haqlarına hörmət tələbi və vətəndaş mövqeyinə dəvət də var: **"Zəiflərin hüququnu qorumayan milləti Allah-Təala təqdir etməz"**.

İbrət götürmək istəyən insan üçün burada hər bir sualın cavabı var.

## Kamil insan yetişdirmək

Düşünürük ki, əziz Rəsulallahın (s) İlahi missiyasının intəhasızlığının əlavə vurğulanmağa ehtiyacı yoxdur. Burada onun müdriklik okeanından yalnız bir damcını misal gətirdiyimizə baxmayaraq, əmin oluruq ki, Peyğəmbərimizin (s) mübarək kəlamları onun həyatverici missiyasını - kamil insan yetişdirmək vəzifəsini çox gözəl surətdə şərh edir. Elə bir kamil insanı yetişdirmək ki, o, digərlərinə məhəbbəti izhar etsin. Elə bir kamil insanı ki, qurucu olsun, zülmün və dağıdıcılığın əleyhdarı olsun. Elə bir insanı ki, onda bütün müsbət xüsusiyyətlər təmsil edilsin. Bir insanı ki, bütün mənfiliklər ona yad olsun. Elə bir insanı ki, ləyaqət və özünəhörmət hissi ona xas olsun, digər insanların haqlarına hörmət edən olsun. Elə bir insanı ki, özü ilə, toplumla, Rəbbi ilə vücudi harmoniya durumunda olsun.

Belə isə, gəlin tənəzzülə və vücudi deqradasiyaya qətiyyətli "yox!" deyək! Gəlin anlamağa çalışaq ki, biz kimik, haradan gəlmişik, haradayıq, haraya gedirik və nə etməliyik...

Gəlin Həzrət Peyğəmbərin (s) mübarək mövluduna bir hədiyyə edək - bir-birini mənasız surətdə əvəzləyən günlərin növbələşməsini dayandıraq və düşünək. Öz yüksək missiyamız, vəzifəmiz barədə düşünək. Özümüz, öz vicdanımız, övladlarımız, gələcək nəsillər qarşısında borcumuz barədə düşünək. Biz onlara nəyi qoyub gedirik? Qarşılıqlı nifrət və özü kimisini məhv etmək istəyi ilə dolu olan bir dünyanı, yaxud tərəqqiyə, harmoniyaya can atan bir dünyanı?

Gəlin tənəzzülə və məhvə doğru yuvarlanmanı dayandıraq! Gəlin Həzrət Peyğəmbərin (s) mübarək təlimində vücudi bir xilas tapaq!

Ey, Rəhim və Rəhman Allah! İnsanlara Quranın İlahi məntiqinin anlanması səadətini, Peyğəmbərimiz (s) və mübarək Əhli-Beyti (ə) tərəfindən çatdırılmış Sənin mübarək təliminin qəbul edilməsi xoşbəxtliyini nəsib et!

Allahım! Həzrət Peyğəmbərin (s) canişini - İmam Mehdi Sahib-əz-Zamanın (ə.f.) zühurunu tezləşdir! Onun zühuru ilə insanlar qarşısında kamillik və harmoniyanın qapılarını taybatay aç! Bizləri o Həzrətin (ə.f) zühurunu tezləşdirənlərdən qərar ver! Amin!

YENİ MÜSAVAT
N 288 (6316) 25 dekabr 2015

# Azərbaycanlı qumarbaz oğurlandı- 10 milyon dollar tələb edirlər

## Onun "BMW X6" markalı avtomobilini idman-sağlamlıq kompleksinin qarşısındakı park yerində tapıblar

**Rusiyanın Tolyatti şəhərində qumarxanalar şəbəkəsinin sahibi olan azərbaycanlı iş adamı oğurlanıb. Virtualaz.org saytı Rusiyanın regional KİV-lərinə istinadən xəbər verir ki, hadisə dekabrın 18-də baş verib. Ancaq biznesmenin oğurlandığı haqda xəbərlər indi yayılıb.**

Bildirilir ki, dekabrın 18-də 43 yaşlı Kamal Quliyev Tolyatti şəhərindəki "Olimp" idman-sağlamlıq kompleksində məşq edən 7 yaşlı oğlunu götürməyə gedib. Ancaq buna imkan tapmadan naməlum şəxslər tərəfindən oğurlanıb. Onun "BMW X6" markalı avtomobilini idman-sağlamlıq kompleksinin qarşısındakı park yerində tapıblar.

Müstəntiqlər hadisə yerində biznesmenin qol saatını və üst geyiminin qopmuş düymələrini tapıblar. Bu da K.Quliyevin zor tətbiq olunmaqla qaçırıldığını deməyə əsas verir.

Şəhərin 2 nömrəli polis idarəsi azərbaycanlı biznesmenin oğurlandığı barədə elan verib və onun yerini bilənlərdən bu haqda məlumat verməyi xahiş edib.

Yerli KİV-lər isə yazır ki, quldurlar biznesmenini azad edilməsi üçün 10 milyon dollar tələb edirlər. Bildirilir ki,




K.Quliyev bir neçə il əvvəl də oğurlanmış və sanballı məbləğ ödədikdən sonra buraxılmışdı.

2007-ci ildə Samara məhkəməsi azərbaycanlı biznesmenləri oğurlamaqda ixtisaslaşmış bandanın üzvlərinə hökm oxuyub. Bandaya Tolyattinin özəl mühafizə şirkəti "Medved"in direktoru Mixail Drobot başçılıq edib. Bandanın tərkibində azərbaycanlı biznesmenləri nişan verən iki azərbaycanlı da olub.

O vaxt hüquq-mühafizə orqanları bandanın oğurladığı iş adamlarının bir çoxundan ifadə ala bilməmişdi. Ehtimal olunub ki M.Drobotun bandası daha çox biznesmeni oğurlayıb. O cümlədən K.Quliyevin oğurlanması da onların işidir.

Bandanın K.Quliyevin biznes-partnyorları Fikrət Məmmədovu və David Babayevi oğurladığı haqda yerli KİV-lər də yazıb.

Fikrət Məmmədov və Kamal Quliyev daşınmaz əmlak, tikinti, restoran və oyun biznesində ortaq olublar. Bir neçə il əvvəl onun şəhərdə "Kokos" qumarxanalar şəbəkəsi olub. Lakin K.Quliyevin oyun biznesindən gəlirləri son vaxtlar kəskin azalıb və hesab edilir ki, onu oğurlayanların tələb etdikləri 10 milyon dolları ödəməsi real deyil.

Görünür, banda K.Quliyevin bahalı maşında gəzməsinə və zahirən zəngin həyat tərzi keçirən şəxs təsiri bağışlamasına aldanıb.

Ailəsi isə hələ biznesmenin oğurlanmasını şərh etmir.

Bildirilir ki, biznesmenin içərisində mobil telefon olan çantasını Tolyattidəki yaşıllıqların birində tapıblar. Şəhər ətrafındakı meşədə orta cərgə oturacaqlarının üst hissəsi kəsilmiş "miniven" tipli yandırılmış maşın tapılıb. Ehtimal olunur ki, bu maşın oğurlanmış adamların daşınması üçün nəzərdə tutulmuşdu. Maşının Rusiyanın başqa regionunda qeydiyyatda olduğu bildirilir.

Mətbuat yazır ki, polis Quliyevin oğurlanması ilə bağlı cinayət işinin istintaqını çox ləng aparır və sanki onu tapmaqda heç maraqlı deyil.



**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq** və **yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən** və **yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları** və **osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



## Yanacaqdoldurma məntəqəsinə silahlı basqın

**Cəlilabad rayonunda yanacaqdoldurma məntəqəsinə silahlı basqın olub. "Report" xəbər verir ki, hadisə rayonun Alar kəndində yerləşən "Alpetrol" yanacaqdoldurma məntəqəsində baş verib.**

Məntəqənin əməkdaşları basqınçılara müqavimət göstərib. Bu səbəbdən də basqınçılar heç nə əldə edə bilməyib, onlar əllərindəki silahdan bir neçə dəfə atəş açaraq qaçıblar. Atəş nəticəsində məntəqənin şüşələri qırılıb.

Faktla bağlı araşdırma aparılır. Hadisə yerindən gilizlər aşkarlanıb.



## Bakıda ağır yol qəzaları: ölənlər var

**Bakıda 2 ölümlə nəticələnən yol qəzası baş verib. Lent.az Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, dekabrın 23-də saat 07 radələrində Sabunçu qəsəbəsində Bakı şəhər sakini Nəvail Tağıyev idarə etdiyi "İsuzu" markalı avtomobillə yolu keçən paytaxt sakini Əbil Əhmədovu vurub. Nəticədə piyada xəstəxanaya yerləşdirilib və orada ölüb. Sabunçu RPİ tərəfindən araşdırma aparılır.**

Digər qəza Nizami rayonunda baş verib. Dekabrın 23-də saat 12 radələrində paytaxtın Nizami rayonunda Masallı rayon sakini Ədalət Məmmədovun idarə etdiyi "Mercedes" və Kürdəmir rayon sakini Ceyhun Kərimovun idarə etdiyi "İsuzu" markalı avtomobillər toqquşub. Nəticədə Ə.Məmmədov hadisə yerində ölüb.



## Qidadan 848 nəfər zəhərlənib

**Bu ilin yanvar-noyabr ayları ərzində Azərbaycan ərazisində 605 qida zəhərlənməsi hadisəsi qeydə alınıb. Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən "Trend"ə verilən məlumata görə, qida zəhərlənmələri nəticəsində 848 nəfər zərərçəkən qeydə alınıb.**

Ötən müddət ərzində ölkə üzrə qeydə alınan 21 botulizm hadisəsi nəticəsində 39 nəfər botulizmlə xəstələnib. Bu il botulizm nəticəsində 3 nəfər dünyasını dəyişib. Botulizm xəstəliyinin başvermə səbəbləri ev şəraitində konservləşdirilmiş məhsullar, digər zəhərlənmələrə səbəb isə məişət şəraitində hazırlanmış kulinariya məhsulları, kremli tortlar, müxtəlif salatlar və digər məhsullar olub.

YENİ MÜSAVAT

Son səhifə

N 288 (6316) 25 dekabr3 2015



## Nanənin faydaları

Nanənin dəriyə tətbiq edilmə üsulu ilə ağrıkəsici xüsusiyyəti var. Baş ağrılarında su ilə qarışdırılmış nanə yağının 10 dəqiqəlik tətbiqi kifayətdir. Burxulmalarda da nanə yağı ilə masaj olunduqda çox yaxşı faydası olur.

Nanə və kəklikotu ilə birgə hazırlanan çay çox faydalı və qripə təsirlidir. Mədə və öd ifrazatını artırır, beləcə həzmi asanlaşdırır. Mədə pozğunluğu, soyuqdəymə və ürək bulantısını aradan qaldırır. Həzmsizlik çəkənlərin pis ağız qoxularını önləyir. Mədə spazmasını aradan qaldırır. Qaraciyərin müxtəlif xəstəliklərinin yaxşılaşmasını təmin edir. Qaraciyər ağrısını aradan qaldırır, öd ifrazatını artırır. Öd daşını tədricən tökür. Mədə və bağırsaqda qazqovucu xüsusiyyətə malikdir, rahatlıq verir. Bağırsaqlarda qida məhv olmasını önləyir, ishal keçirir. Spazmanı aradan qaldırır. Asma, qrip, öskürək zamanı nanənin çox xeyri vardır. Nəfəs almağı asanlaşdırır. Bəlğəm gətiricidir. Nanənin sinir sistemində faydası: sinirləri sakitləşdirir, həyəcanlı və qorxulu anlarda arxayınlıq verir. Sinir yorğunluğu, sinirdən olan qusmalar, beyin yorğunluğu, beyin soyuqdəyməsi, miqren, əl-ayaq titrəməsi, iflic, həyəcandan dil tutulması, yuxusuzluq, baş gicəllənmələri hallarında çox fayda verir. Ürəyi qüvvətləndirir, döyüntüləri aradan qaldırır. Nanə həzm sistemi üçün yaxşı bitkidir. Qəbizlik və ishal şikayətlərində də bu təsirini göstərir. Yaxşı bir həzm üçün yeməklərdən sonra bir fincan nanə çayı qəbul etmək məsləhətdir.

# Bu ölkə Yeni ili qadağan etdi

Somali hökuməti Milad bayramı və Yeni ilin keçirilməsini qadağan edib. "İnterfax" agentliyinin verdiyi məlumata görə, bu barədə ölkənin Dini Məsələlər üzrə Nazirliyindən göstəriş verilib.



Nazir Şeyx Məhəmməd Hayrou qadağanın səbəbini izah edərkən Milad və Yeni il bayramının İslam mədəniyyətinə zidd olduğunu və müsəlman cəmiyyətinin inanclarını ilə uyğun gəlmədiyini əsas gətirib. "Milad bayramını qeyd etmək millətin İslami inanclarına təhdidə səbəb ola bilər. Bu mərasimlərin İslam dini ilə heç bir əlaqəsi yoxdur. Somalidə yaşayan əcnəbilər Miladı evlərində keçirməkdə sərbəstdirlər. Lakin hotel və açıq məkanlarda heç bir bayram tədbiri keçirilməyəcək. Müsəlmanların bu günü qeyd etməsi doğru deyil" deyə hökumət rəsmisi bəyan edib. Məhz bu səbəbdən sözügedən bayramlarla bağlı ölkənin heç bir yerində şənlik keçirilməsinə icazə verilməyəcək. Nazir qadağaya əməl etməyənlərin ciddi cəzalandırılacağını da deyib: "Ordu qüvvələrinə əmr verilib ki, harada belə bir tədbir görülsə, dağıdılsın, qadağaya əməl etməyənlər isə saxlanılsın".

# İtaliyada narkotik-çay satılırmış

İtaliyada avtobus sürücü olan kişi Peru çayı içdikdən sonra müayinəyə getdiyi zaman qanında narkotik tapılıb. 37 yaşlı kişinin analiz nəticələri İtaliyada narkotik-çay satıldığı gerçəyini ortaya çıxarıb. 10 ildir avtobus sürücüsü olaraq çalışan və keçmişdə heç bir problemi olmayan kişi həkiminə narkotikdən istifadə etmədiyini, analiz verməzdən əvvəl iki fincan Peru çayı içdiyini deyib. "Delissa alla coca" adlı Peru çayını içdiyini və bu çaydan enerji aldığını deyib. Həkim xəstəsinə inanmadığı üçün çayı öz üzərində test etməyə qərar verib və çaydan iki fincan içdikdən sonra qan testi edib. Analizlərdən sonra onun da qanında narkotik tapılıb. Bundan sonra polislərə xəbər verən həkim araşdırma aparılmasını istəyib. Uzun müddət davam edən araşdırmalardan sonra çayın Perudan gəldiyi və təhlükəli maddə olduğu açıqlanıb. Çayın gömrükdən necə keçdiyi isə bəlli deyil.

Bu çaylarda istifadə edilən koka yarpağı Peru, Çili, Kolumbiya kimi ölkələrdə 1961-ci ildən bəri narkotik maddə kimi tanınır.





## "Xərçəngəm" deyib müəllimini aldatdı

İngiltərə qeyri-adi bir saxtakarlıq yalanı ilə çalxalanır. Elisa Bianco adlı universitet tələbəsi "Xərçəngin son mərhələsindəyəm" deyərək 49 yaşlı müəllimini 4 il boyunca aldadıb. Ratellak adlı müəllim xərçəng olduğunu, lakin ailəsinin ona yardım etmədiyini deyən qıza evinin qapısını açıb. Hətta Bianconun uzun və bahalı tətillərinin pulunu ödəyib. Bunlarla bərabər qızın "son istəkləri" siyahısında yazılanları etmək üçün əlindən gələni edib. Əslində xərçəng xəstəsi olmayan Bianco inandırıcı olmaq üçün həddən çox arıqlayıb. Bəzən xəstəliyinin ağırlaşdığına ətrafdakıları inandırmaq üçün səsini dəyişdirməyə çalışıb. Tələbəsi ilə yaxından maraqlandığı üçün arvadı müəllimdən uzaqlaşıb və sonda ondan boşanıb. Çox keçmədən müəllimin karyerası da təhlükəyə düşüb. Ratellak Bianconun xəstəxanada olduğunu düşündüyü zaman o, gününü kafelərdə keçirirmiş. Müalicə üçün xəstəxanaya getdiyini deyən qızı bir gün təsadüfən kafedə görən kişi 4 il boş-boşuna zaman və pul itirdiyini başa düşüb və " 4 il boyunca həyatımı məhv etdi. Hər şey yalan imiş" deyə müsahibə verib.

## Qoroskop




QOÇ - Olduqca təzadlı gündür. Ünsiyyətdə olduğunuz adamlar sizi çaşdıra bilər. Perspektivlərinizi reallaşdırmaq üçün müzakirələrə başlayın. Ulduzlar sizi müdafiə etməkdədir.

BUĞA - Ulduzlar səmərəli bir gün yaşayacağınızı bildirir. Gün ərzində hər hansı qanqaraçılığı gözlənilmir. Qərarlarınızda qətiyyətli olsanız, çox sahələrdə bəxtiniz də gətirəcək.

ƏKİZLƏR - Astroloji göstəricilər bu təqvimdə maraqlı səfərlərə çıxacağınızdan xəbər verir. Əgər planınızda belə bir şey varsa, reallaşdırın. Yeni simalarla üzləşməniz çox əhəmiyyətlidir.

XƏRÇƏNG - Ulduzların düzümü maliyyə imkanlarınızın genişlənəcəyindən xəbər verir. Varlanmaq üçün xeyli şanslarınız var. Amma gün ərzində mənfi yüklü Ayın bürcünüzdə olmasını da unutmamalısınız.

ŞİR - Səhər saatlarında müəyyən gərginliklə rastlaşsanız da, bunun neqativ nəticələri görünməyəcək. Təxminən saat 12-dən vəziyyətiniz düzələcək. Amma sağlamlığınızı da gözdən qoymayın.

QIZ - Daxili sabitliyinizi qoruyun. Əks təqdirdə, müttəfiqləriniz sizdən uzaqlaşa bilər. Çalışın ki, hər bir davranışda səmimi və təbii olasınız. Yalan vədlər verməkdən uzaq olun.

TƏRƏZİ - Müəyyən təsirlərə məruz qalacağınız gözlənilir. Bunun qarşısını almaq üçün riskli sövdələşmələrdən uzaq durmalısınız. Ümumiyyətlə, bu gün ağlınız kəsməyən işlərə baş qoşmamalısınız.

ƏQRƏB - Ünsiyyətdə olduğunuz bütün insanlarla davranışlarınızı səmimilik üzərində qurun. Maddi problemlərinizin aradan qalxacağına nikbin baxın. İnsanlara inamsız yanaşmayın.

OXATAN - Ailə zəminində müəyyən mübahisələriniz gözlənilsə də, bu, nəzərdə tutduğunuz planların reallaşmasına mane olmayacaq. Ailə-sevgi münasibətlərindəki passivliyi də aradan qaldırın.

OĞLAQ - Sürprizlər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə durmamalısınız. Evə bir qədər gec getsəniz də olar. Əsas məsələ planlarınızı həyata keçirməkdir. Bəxtinizdə pul da var.

SUTÖKƏN - Ümumi məziyyətlərinə görə səmərəli gün hesab etmək olar. Ötən günlərin yorğunluğunu nəzərə alıb yaxşıca dincəlin. Çalışın ki, əsas vaxtınızı doğmalarınızla birlikdə keçirəsiniz.

BALIQLAR - İştirakçısı olduğunuz proseslərə ciddi yanaşsanız, gün ərzində nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətinə qovuşacaqsınız. Bu gün ulduzlar sizə ciddi məbləğdə pul da vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Boğulmaqdan qurtuldu, lotereyada pul uddu



İspaniyadan 8 il əvvəl sığınacaq alan 35 yaşlı oğlan builki lotereyanın qalibi olub. Afrikadan Avropaya keçməyə çalışarkən gəmisi batan Ngagne adlı gənc ispan dənizçilər tərəfindən xilas edilib. Yaşadığı Roquetas de Mar qəsəbəsində aldığı lotereya 400 min avro qazanıb. "Sputnik"in xəbərinə görə, Ngagnenin qazandığı pul qəsəbə sakinlərini sevindirib. Bileti satın aldığı mağazanın qarşısında jurnalistlərə müsahibə verən gənc göz yaşlarını saxlaya bilməyib: "Mən dənizdə ikən məni xilas edən ispan xalqına və İspaniya hökumətinə təşəkkür edirəm". 2007-ci ildən bəri İspaniyada ağır şərtlər altında yaşayan Ngagne arvadı ilə bərabər tarladan səbzə toplayaraq yaşamağa çalışırmış. "Olanlara hələ də inana bilmirəm" deyən oğlan işdən çıxarıldıqdan sonra lotereya qazanmasının həyati önəmli olduğunu deyib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300